Allah İman gətirən və saleh əməl sahiblərinə bağışlanmaq və böyük mükafat vədini vermişdir.

"Maidə" surəsi, 9-cu ayə

# İMAN

"İman" mədəni, maarif müəssisəsinin nəşri

Noyabr 2012 (Məhərrəm 1433) 07 (75)



# *Təşəkkür edirəm sənə...*



***Təşəkkür edirəm Sənə ki, örpəyinlə belə gözəlsən..***
***Təşəkkür edirəm Sənə ki, örpəyinlə belə ağıllısan..***
***Təşəkkür edirəm Sənə ki, örpəyinlə həqiqi müsəlmansan..***
***Təşəkkür edirəm Sənə ki, örpəyinlə ürəkləri şad edirsən..***
***Təşəkkür edirəm Sənə ki, örpəyinlə öz milli mədəniyyətini qoruyursan..***
***Təşəkkür edirəm Sənə ki, örpəyinlə ALLAHı, Peyğəmbərləri, Məsumları, Sənin kimi sadə, amma Səni özü kimi çox sevənləri insanlar arasına çıxarkən xoşbəxt edirsən, sevindirirsən..***
***Təşəkkür edirəm Sənə ki, örpəyinlə İslamın bayrağını ucalara qaldırırsan...***
***Təşəkkür edirəm Sənə ki, örpəyinlə Ana'lıq vəzifəsinə layiq olduğunu göstərirsən..***
***Təşəkkür edirəm Sənə ki, örpəyinlə öz şəxsiyyətini mənfur baxışlardan gizlədib, yalnız yaxınların və sevdiklərinə aşkar edirsən..***
***Təşəkkür edirəm Sənə ki, örpəyinlə ailə ocağını möhkəmləndirib, bunu edə bilməyənlərə dərs verirsən..***
***Təşəkkür edirəm Sənə ki, örpəyinlə ALLAHı, Qurani-Kərimi, nə üçün yaradıldığımızı yada salırsan, təbliğ edirsən, nümunə olursan, Rəbbin fərmanını aşkar edirsən..***
***Təşəkkür edirəm Sənə ki, örpəyinlə özünü yad gözlərdən qoruyaraq, əsl azadlığın carçısısan..***
***Təşəkkür edirəm Sənə ki, örpəyinlə Xanım Zəhra (ə)-nın örpəyini qoruyub, əsrimizin İmamı, Mehdi (ə)-ın qəlbini şad edirsən..***

***Qaranlıq gecədə ulduzlar parlayan kimi, işıqlı sübhdə Günəş kimi bu cəmiyyətdə parlayırsan..***
***Bu yazının xatirəsi mənim üçün olduqca xoş və unudulmazdır.. Yadıma düşdükcə xoş bir təbəssümlə xatırlayıram..Bu yazını paylaşacağımı çox istəmişdim..Paylaşmağım mənə çox doğma olan bir insanın doğum gününə təsadüf etdi..Bu sətirləri oxuyarkən ilk gözümün önünə gələn insan da məhz O'dur..***
***Bu xəbərdə Sənə varlığın üçün, dəstəyin üçün, dostluğun üçün təşəkkür etməyəcəm..Sənə, Sənə layiq olan həyatı sürdüyün üçün, bir çoxumuzun edə bilmədiyini, seçdiyin o gözəl qərarın üçün, o gözəl, xoş, müsəlman xanımına layiq olduğun siman üçün təşəkkür edirəm..***
*Sadəcə təşəkkür edirəm Sənə.*

# AŞURA İNQİLABI



***İnsan kamilləşmək və sonunda öz əsil vətəni olan mələkut aləminə qovuşmaq üçün yaranıb. Yəni insan dünyada əbədi qalmaq, dünyadan bacardıqca ləzzət almaq, ötəri nəfsani istəklərinə çatmaq üçün və s. ötəri məqsədlər üçün deyil, mənən ucalmaq və Allaha qovuşmaq üçün yaranıb. Bu məna hamıya bəllidir ki, insan təfəkkürü və insan dühası, bu dünyadan böyük və genişdir. Amma bu məqsədə çatmaq üçün nə etməli? Bu tale yüklü sualı İslam dini lazımi dərəcədə cavablandırmış və bəşəriyyətə qiyamətə qədər bəs edəcək bir həyat və kamillik proqramı təqdim etmişdir. Bu mübarək din təkcə proqramla kifayətlənməmiş, həmin proqrama necə əməl olunmasını anlatmaq üçün nümunəvi şəxslər seçərək insanlığa örnək göstərmişdir. Bütün peyğəmbər və imamlar həmin ilahi proqramının təlimatçıları və örnəkləridir.***

Bu İlahi qüdrətlərdən biri də imam Hüseyndir (ə). İmam Hüseyn(ə) İlahi əzəməti ilə, Qurani-şərifin müqəddəsliyini qorumaq üçün həm özünü, həm də bütün yaxınlarını fəda etdi. İmam Hüseynin (ə) bu fədakarlığını dərk etmək üçün bütün ənbiya və övliyanı tanımaq lazımdır. İmam Hüseyni (ə) ziyarət edərkən deyirik: Salam olsun Adəmin, Nuhun, İbrahimin, Musanın, İsanın, Məhəmmədin (s), ümumiyyətlə bütün ənbiya və övliyanın varisinə. Bu nə deməkdir? Yəni Hüseyn (ə) yəni Adəm (ə), Hüseyn yəni Nuh, yəni Musa və s. Yəni Hüseyn (ə) öz məqsəd və hədəfinə bütün peyğəmbərlərlə həmfikirdir. İmamın kəlamlarından birində deyilir: Mənim kimisi Yezid kimisinə beyət etməz. Yəni Hüseynin: İbrahimin Nəmruda, Musa Firona, Məhəmməd (s) Əbu Süfyana beyət etmədiyi kimi mən də Yezidə beyət etmərəm deməsi özündən sonra gələnlərə də anlatdı ki, mənim kimisi Yezid kimisinə beyət etməməlidir. İmam anlatdı ki, müasir dövrdə bəşərin İlahi inkişafına mane olan həşəratlar, yezidlər, ömər sədlər, ibn ziyadlar, şimrlər və başqalarıdır. İmam görürdü ki, özünü peyğəmbər xəlifəsi kimi təqdim edən, sonrakı həyatın nə olduğunu dərk etməyən bədbəxt və şüursuz bir məxluqdur.

Müaviyənin Əbu Süfyandan öyrəndiyi çirkin siyasətin nəticəsində İslam və Quranın yalnız quru qabığı qalmışdı və Yezid bu siyasəti daha kobud şəkildə davam etdirirdi. İmam öz kəlamlarının birində buyurur: Əgər İslam ümmətinə Yezid kimi bir rəhbər başçılıq edəcəksə o zaman İslamın fatihəsini oxumaq lazımdır. Müaviyə hiylə ilə də olsa heç olmazsa İslama zahirən əməl edirdi. Lakin Yezid açıq-aydın küfr edir və İslamın heç bir qanununa hörmət bəsləmirdi. Lühüf kitabında deyilir: Əsirlər və şəhidlərin kəsik başları nizə başında Yezidin sarayına yaxınlaşarkən o məlun bir şeir oxudu və o şeirin bir beytinin tərcüməsi belədir: Haşim nəsli padşahlıq oyunu oynadı, əslində o dünyadan nə bir xəbər gəlmiş, nə də vəhy nazil olmuşdur.

İmam Hüseyn (ə) müsəlman xəlifəsi cildinə girmiş




belə bir şəxsə beyət edə bilməzdi. Bu tarixin İmam Hüseynə(ə) etdiyi haqsızlıq idi ki, danışdıqda və yazdıqda “İmam Hüseyn və Yezid” deyə söhbət açılır. Lakin əslində imam kimi bir nuru Yezid kimi bir zülmətlə müqayisə etmək nə dərəcədə doğrudur?

İmamın Əbəlfəzlini, Əli Əkbərini, Həbibini, Müslümünü (ə) Yezidin İbn Ziyadı, Şimri, Sinanı ilə üzbəüz təsəvvür etmək nə qədər doğrudur? İmam Allah aşiqi, Yezid isə nəfs aşiqi!

İmam sədaqət simvolu, Yezid isə xəyanət təcəssümü!

İmam pak idi və pakların öndəri idi, Yezid isə dünyasını məhv edən və öz şərəfsizliyinə və rəzalətinə düşgünlərin ən alçağı!

İmam Allah vəlisi olduğunu və ölümdən sonrakı əbədi və ülvi həyatı qəbul etdiyini öz ölümü ilə ölümü belə şərəfləndirdi. Yezid isə ümumiyyətlə ölümdən qorxan bir müqəvva idi.

İmam insanlığı haqq və azadlıq uğrunda hər şeyini qurban verən bir fədakar şəhid, Yezid isə insanlığı öz çirkin ehtiraslarına qurban verən bir rəzalət timsalı idi.

İmam Hüseyn (ə) Rəsulullahın (s) sədaqətini, mərdliyini, helmini, əxlaqını, şücaətini və Əli əleyhissəlamın qəhrəmanlığını özündə cəmləşdirən bir şərəf mücəssəməsi idi.

Yezid isə öz nəfsinin əsiri və insanlığın üz qarası!

İmam bu dünyaya nümayiş etdirdi ki, Allah aşiqi öz eşqi uğruna başı nizələr ucunda qurban gedə bilər, başsız bədəni əğyarın at nalları altında əzilməyə də dözə bilər. Yezid isə sübut etdi ki, şeytana layiqli qul olmaq üçün Allah aşiqlərinin qanını tökməyə belə hazırdır. İmam sübut etdi ki, mərifət gülləri şəhid qanı ilə çiçəklənə bilər və qırmızı rəng təravət və çiçək rəngidir. Yezid isə göstərdi ki, qəlbi qara insanlar hətta Hüseyn(ə) kimi nurani bir şəxsin, Əli Əsğər kimi südəmərin və Həbib kimi qocaman səhabənin də Kufə kimi zibillikdə gül bitirən qanı bu insana təsir etmir.

İmam Kəbədə öz Rəbbi ilə əhd-peyman bağladı, Ərəfatda öz Rəbbi ilə görüşüb qəlbini eşq dolu zəmzəmlə sirab etdi, sonra da Kərbəla minasında öz əhdinə aşiqlərin qibtə edəcəyi aşiqanə bir tərzdə vəfa qıldı.

İmam Allahın nuru, Yezid isə İblisin törəməsi idi. İmam ağlın, eşqin və imanın, Yezid isə nəfsin, rəzalət və küfrün timsalı idi.

Yezid fani dünyanın övladı olduğu üçün, fani və ötəri qələbəni öz məqsədinə çatması kimi qəbul etdi. İmamın həyatı isə əbədiyyət günəşinin özünü fəda etməsi əbədi bir məşəlin alovlanmasına böyük və layiqli bir zəmin yaratmaq üçün imiş.

İmam öz səhabələrini seçib aparmışdı və onlara vədə verdiyi İlahi rəhməti onlara çatdırdı. Yezid isə onun özü kimi vəfasızlıqda, imansızlıqda və nəfspərəstlikdə lider olan kölələrinə verdiyi vədələrinə əməl etmədi.

İmam Hüseyn (ə) elə bir dövrdə yaşayırdı ki, cəmiyyət beş dəstəyə bölünmüşdü.

1. Paklar və paklığı sevənlər (Hüseyn (ə) və hüseynçilər).

2. Rəzillər və rəzaləti sevənlər Yezid həm yaramaz idi, həm də yaramazlığı təqdir edirdi, yəni o, paklığa düşmən idi.

3. Kinli rəzillər, yaltaqlar və şəhvətpərəst alçaqlar. (Şimr, İbn Ziyad və s.).

4. Xəyanətkar dünyapərəstlər. Elə dünyapərəstlər ki, hətta Hüseyn kimi nuru da öz müvəqqəti keflərinə qurban verməyə hazır idilər.

5. Ruzigarın əsdiyi istiqamətdə hərəkət edən, fədakarlıq və zəhmətdən uzaq qaçan dünyapərəst “mömінlər”.

Yuxardakı dörd ünsür imamın qətlində nə qədər günahkar idisə, beşinci ünsürün biganəliyi və laqeydliyi o qədər amansız idi. Rəsulullah(s) beləəri haqqında demişdi: Övladım Hüseynə(ə) biganə qalanlar zəlil olacaq. Bu xəbərdarlıq həccacların timsalında Hərrə hadisəsində təsdiq olundu. Özlərini həm Hüseynə (ə), həm də Yezidə xoş göstərənlər bu hədisin raviləri idilər və elə onlar, vaxtilə Əli əleyhissalama beyət etməyənlərin yəni həccacların ayağının altını öpərək səhabə kimi şərəfli adı ləkələdilər. Bəli, özlərini mömin adlandıran bu dünyapərəst qocalar İslam gülüstanının solduğunu və mərifət ağacının quruduğunu gördükləri halda susur, öz xəyallarında din ilə dünyanı orta məxrəcə gətirirdilər. Lakin Hüseyn (ə) bu dünyaya vaxt

keçirməyə gəlməmişdi. Onlar dünyapərəst Məkkədə nüfuz bazarı açarkən Hüseyn(ə) hayqırırdı: “Allah böyük işləri sevir və kiçik işləri bəyənmir”.

Onlar “Dini insanların ağzındakı saqqıza çevirib məqsədlərinə uyğun olduqda çeynəyir, xoşa gəlmədikdə bir kənara atırlar”.

“Görürsünüzmü ki, haqqa əməl olunmur və batildən çəkinən yoxdur?”

“Gör dünya nə qədər alçalmışdır ki, Yəhya (ə) kimi pak bir peyğəmbərin başı pozğun bir qadına hədiyyə göndərildi”.

Hüseyni (ə) tanıyan ümmət heç vaxt zəlil olmaz və əgər bu ümmət zəlildirsə deməli Hüseyni (ə) tanımır. Əgər adını Səlman qoyan hər hansı bir şəxs Hüseyni tanımadan ona ağlayanlara etiraz edirsə o çox cahil və avamdır və İslamı da tanımır. Müsəlmanın isə İslamı öyrənməsi vacibdir. Hüseyn(ə) həm öz zamanı üçün, həm də bu gün hidayət çırağıdır. Bunu İslam Peyğəmbəri buyurub. İslamın və Peyğəmbərinin yolunu düzgün şəkildə öyrənən hər bir müsəlman Hüseynin həqiqətən hidayət nuru olduğunu anlayır. Hüseyn müsəlmanlığın təkcə fərdi ibadətlərdən ibarət olmadığını bütün dünyaya bildirdi. Bildirdi ki, müsəlman həm dindar, həm də dinin xilaskarı olmalıdır və ən böyük ibadət dinin yolunu daş-kəsəkdən təmizləməkdir. İmam öz həccini yarımçıq qoyub Kufəyə yola düşdü. O bununla demək istəyirdi ki, ey müsəlmanlar nə qədər ki, Kəbə imansızlar əlindədir, təvafın mənası yoxdur. İmam anlatdı ki, bu gün daş atmaq üçün ən böyük şeytan Yeziddir, bu gün səy etmək üçün ən yaxşı məsafə xeymə ilə qətlgahın arasıdır, bu gün içmək üçün ən faydalı zəmzəm qandır, bu gün təvaf üçün ən yaxşı ev peyğəmbər ailəsi qərarlaşmış xeymədir, bu gün ən yaxşı qurbangah Kərbəladır, bu gün ən yaxşı namaz oxların qabağındakı xof namazıdır, bu gecəni Minada deyil, susuz səhrada gecələmək lazımdır, bu gün ehram əvəzinə zireh geymək lazımdır. İmam təsdiq etdi ki, qardaşı İmam Həsən(ə) bu günkü şəhidlərin ərsəyə gəlməsi üçün on il öncə Müaviyə ilə sülh müqaviləsi bağlamışdı. Onlar isə öz növbəsində elə kamilləşmişdilər ki, Rəsulullahın (s) və Əlinin (ə) səhabələrini görmüş Hüseyn (ə) onlara belə qiymət verdi: Mən sizdən yaxşı səhabə tanımıram! Hüseynə (ə) ağlamaq lazımdır. Ona ağlamalıyıq, çünki insan ağlayarkən daha müdrik olur. Ağlamaq lazımdır, çünki aqillər aqili Rəsulullah (s) ona ağlayıb. Ağlamaq lazımdır ki, hər damcı göz yaşımız qəlbimizdəki iman ağacının boya-başa çatıb bar verməsinə yardım etsin. Hüseyn(ə) bu gün də uca səslə bizi zillətdən uzaqlaşdıraraq hamını İlahi mərifətə bu şüarla çağırır: “Zillət bizdən uzaqdır!”

**Məhəmməd Baqir Saivər**
İlahiyyat və din alimi

السلام على الحسين
وعلى علي بن الحسين
وعلى أولاد الحسين
وعلى أصحاب الحسين

# Hüseyn Cavid



## Kərbəla mərsiyəsi

*Fars dilindən sətri tərcümə*

Kərbəla padşahının adını eşidən kəs,
Dərhal o əza məclisinə matəm saxlar.
Matəm məclisində başına döyər,
Həmin məclisdə şah ilə gəda arasında fərq olmaz.
Ey ürək, sən bir an da bu müsibətdən qafil olma.
Cəza günündə onun şəfaətindən başqa heç bir mükafat yoxdur.
Əgər bir an açıq gözlə baxsan,
Şəhidlər ağası, susuz şaha sən;
Fatimə bir küncdə kədərli oturduğunu görərsən.
O gecə nalə edərək, əza saxlamışdır.
Oğlunun cənazəsinə baxaraq, deyir:
Məgər sənin qatilin Allahdan şərm etməyib?
Zeynəb isə göz yaşlarını axıdaraq,
Səhərdən axşamadək şəhid şahına
matəm saxlamışdır.
Bir an, Arif, bu müsibətdən qafil olma,
Ariflər məclisinə sənin vücudun bir qənimətdir

# NƏ ÜÇÜN HÜSEYN (Ə)

**Bəşəriyyət tarixinin ən şanlı qəhrəmannaməsinə çevrilən İmam Hüseynin (ə) həyat tarixinin əhəmiyyəti təkcə hər il milyonlarla insanın hisslər dalğasını təlatümə gətirməsində, bütün mərasimlərdən daha artıq həyəcanlı və əzəmətli bir mərasim yaratmasında deyil; əksinə onun əhəmiyyəti əsas etibarı ilə pak dini-insanı və ictimai amillərdən başqa bir amilinin olmamasındadır; bu tarixi hadisənin ildönümü münasibəti ilə təşkil olunan əzəmətli tədbir və yığıncaqların heç bir müqəddiməyə, təbliğat fəaliyyətlərinə ehtiyacı yoxdur və bu nöqteyi-nəzərdən də misilsiz bir hadisədir.**

Bizim əksəriyyətimiz bu həqiqəti bilirik, lakin çoxları, xüsusilə qeyri-islami mütəfəkkirlər üçün hələ də düzgün şəkildə aydınlaşmayan, onların nəzərində müəmma şəklində qalan mühüm məsələ budur: nə üçün kəmiyyət və keyfiyyət baxımından oxşarı az olmayan bu tarixi hadisəyə bu qədər əhəmiyyət verilir?! Nə üçün anma mərasimləri hər il əvvəlki illərlə müqayisədə daha əzəmət və coşqu ilə keçirilir?!

Nə üçün hal-hazırda üməyyə silsiləsindən və onların tərəfdarlarından heç bir əsər-əlamət yoxdur. Hadisənin qəhrəmanları isə unudulmalı olduğu halda Kərbəla hadisəsi özünə əbədilik rəngi almışdır?

Bu sualın cavabını sözügedən inqilab hərəkatının əsil stimullarının axarlarında axtarmaq lazımdır. Biz təsəvvür edirik ki, bu məsələnin araşdırıb təhlil edilməsi İslam tarixindən agahlığı olanlar üçün çox da mürəkkəb və çətin deyildir.

Daha aydın bəyanla desək, qanlı Kərbəla hadisəsi hakimiyyət kürsüsünü ələ keçirmək, mal-dövlət qazanmaq, ölkə fəth etmək, ərazi genişləndirmək və s. əldə etmək üçün iki siyasi rəqib arasında baş verən müharibə olmamışdır. Həmçinin bu hadisə qəbilə-tayfa imtiyazlarına əsaslanan iki tayfanın kinküdurət üzündən qarşıdurmasından və kinlərinin partlayışından qaynaqlanmamışdır.

Bu hadisə həqiqətdə iki fərdi və əqidəvi fikri cərəyanın arasındakı mübarizəsinin aydın səhnəsidir ki, onun alovu bəşəriyyətin macəra ilə dolu olan tarix boyu lap qədim zamanlardan indiyə qədər heç vaxt sönməmişdir.

Bu mübarizə bütün ilahi peyğəmbərlərin, dünyanın islahatçı və xilaskar insanlarının mübarizəsinin davamı və başqa sözlə desək, "Bədr" və "Əhzab" müharibələrinin davamı idi.

Hamımız bilirik ki, Peyğəmbəri-əkrəm (s) ictimai və ideoloji inqilab rəhbəri ünvanı ilə bəşəriyyətin hər növ bütpərəstlik və xurafatdan xilası, insanların hər növ cəhalət və zorakılıqdan azadlığı üçün qiyam edərkən zülmə məruz qalanları, haqq axtaranları – onlar bu ictimai dəyişikliyin ən mühüm ünsürləri idi – öz ətraflarına topladı. Bu zaman belə bir islahatçı və mütərəqqi hərəkatın müxalifləri – onların başında bütpərəst varlılar və Məkkə sələmçiləri dayanırdı – öz cərgələrini möhkəmləndirərək, bu səmavi nidanı məhv etmək, onun nurunu söndürmək üçün bütün qüvvələrini işə saldılar. İslamın ziddinə olan bu fəaliyyətlərin bünövrəsini əməvi partiyası qoymuşdu. Onların da başçısı Əbu Süfyan idi. Lakin axırda İslamın gözqamaşdırıcı nüfuz və əzəməti müqabilində diz çökdülər, təşkilatları tamamilə dağıldı.

Aydındır ki, bu cür sıradan çıxma onların kökünün tamamilə kəsilməsi mənasına deyil; əksinə onların həyatında dönüş nöqtəsi hesab olunurdu. Onlar islamın əleyhinə apardıqları aşkar fəaliyyətlərini məxfi və tədrici fəaliyyətlərə çevirərək – hər bir inadkar, zəif və məğlubiyyətə uğramış düşmənin proqramları belə olur – öz məkrli tədbirlərini həyata keçirmək üçün münasib fürsət gözləyirdilər.

Bəni-üməyyə qəbiləsi Peyğəmbərin (s) vəfatından sonra mürtəce cərəyan yaratmaq və cəmiyyəti İslamdan əvvəlki üsul və qaydalara sövq etmək üçün hakim sistemə nüfuz etməyə çalışırdılar. Müsəlmanlar Peyğəmbərin dövründən nə qədər uzaqlaşırdılarsa, onların məkrli tədbirləri üçün bir o qədər münasib şərait yaranırdı. Xüsusilə, müxtəlif səbəblərdən Bəni-üməyyədən başqalarının əli ilə bir sıra cahiliyyət adət-ənənələri dirçəldildi. Bu da cahiliyyət hərəkatı üçün zəmin yaratdı. O cümlədən:

**1. İrqçilik.** İslam irqi ayrı-seçkiliyin üzərinə qırmızı xətt çəksə də bu siyasət xəlifələrdən bəzilərinin vasitəsilə dirçəldildi və ərəblər qeyri-ərəblər üzərində xüsusi üstünlük əldə etdilər.

# UNUDULMUR?

**2. Müxtəlif ayrı-seçkiliklər.** İslamın mahiyyəti ilə heç bir uyğunluğu olmayan ayrı-seçkilik həmin dövrdə zahir olmağa başladı. Peyğəmbərin (s) dövründə müsəlmanların arasında bərabər bölünən beytul-mal tamamilə başqa şəkildə bölünməyə başladı, bir çox insanlara yersiz imtiyazlar verildi və cəmiyyətdə sinfi ziddiyyətlər yaranmağa başladı.

**3. Peyğəmbərin dövründə ləyaqət, bacarıq, əməl, əxlaqi və mənəvi keyfiyyətlərə görə müəyyən insanlara verilən dövlət məqamları qohum-əqrəba və qəbilə-tayfaçılıq formasında oyun-oyuncağa çevrildi, bəzi xəlifələrin qohum-əqrəbaları arasında bölüşdürüldü.**

Həmin şəraitlə eyni zamanda Əbu Süfyanın övladlarından olan Müaviyə İslam hökumətinə nüfuz edərək İslam məmləkətinin ən strateji bölgələrindən biri olan Şama hakim təyin edildi. Oradan da cahiliyyət hizblərinin tör-töküntülərinin köməyi ilə İslam hökumətinin tam mənada ələ keçirilməsi və cahiliyyət dövrünün mürtəce adət-ənənələrinin dirçəldilməsi üçün şəraiti hazırladı.

Bu hərəkat o qədər güclü idi ki, imam Əli (ə) kimi böyük bir şəxsiyyətin xilafət dövrü bütünlükdə onunla mübarizəyə sərf olundu.

İslama zidd olan bu hərəkatın əsl siması o qədər aşkar idi ki, hərəkatın liderləri belə onu gizlədə bilmirdilər.

Xilafətin Üməyyə və Mərvan sülalələrinə nəql olunduğu zaman Əbu Süfyan özünün tarixi cümləsində həyasızlıqla demişdir: "Ey Bəni-üməyyə! Çalışın, hakimiyyəti əldən verməyin! (Top kimi bir-birinizə ötürün)! And içdiyim şeyə and olsun ki, nə cənnət var, nə də cəhənnəm! (Məhəmmədin qiyamı siyasi bir hərəkət idi!)"

Yaxud Müaviyə İraq hakimiyyətini ələ keçirən zaman Kufədə öz məşhur xütbəsində dedi: "Mən buna görə gəlməmişəm ki, siz bir tək namaz qılıb oruc tutasınız; buna görə gəlmişəm ki, sizə hakim olam! Hər kəs mənimlə müxalifət etsə, onu məhv edəcəyəm!"

Yezid Kərbəlada şəhadət məqamına çatan insanların kəsilmiş başlarını görən zaman dedi: "Kaş Bədr müharibəsində öldürülən ata-babalarım burada olaydı və mənin Bəni-haşimdən necə intiqam aldığımı müşahidə edəydi!"

Bütün bunlar İslama zidd olan bu irticaçı hərəkatın mahiyyətini nümayiş edən əyani sübutlar idi; nə qədər irəliləsə, bir o qədər kəskin və pərdəsiz olurdu.

İmam Hüseyn (ə) əziz islamı təhdid edən və Yezidin dövründə özünün son həddinə çatan bu böyük təhlükənin müqabilində sükut edə bilərdimi?! Görəsən, Allah, Peyğəmbər və onu böyüdüb boya-başa çatdıran pak insanlar bunu bəyənərdimi?!

Görəsən, həzrət Hüseyn (ə) böyük fədakarlıq göstərərək İslam cəmiyyətinə kölgə salan belə bir sükutu pozmalı deyildimi?! Bəni-üməyənin zəhərli təbliğatlarının pərdəsi arxasında gizlənən və cahiliyyət dövrünə məxsus hərəkatın iyrənc simasını ifşa etməli deyildimi?! Gələcək nəsillərə əbədi qəhrəmanlıq irsi qoyub getmək üçün özünün pak qanı ilə islam tarixinin səhifələrinə parlaq sətirlər yazmalı deyildimi?!



Bəli! İmam Hüseyn (ə) bu işi gördü və İslam uğrunda özünün böyük tarixi vəzifəsini yerinə yetirdi, İslamın tarixinin istiqamətini tamamilə dəyişdi, Bəni-üməyyə tayfasının İslama zidd olan məkrli hiylələrini ifşa etdi, onların zülm əsasında son fəaliyyətlərini zərərsizləşdirdi.

İmam Hüseyn (ə) qiyamının həqiqi mahiyyəti məhz budur! Buradan aydın olur ki, nə üçün İmam Hüseyn (əleyhis-salam)-ın adı və tarixi heç vaxt unudulmur, o hər hansı bir dövrə, zamana məxsus deyildir; əksinə onun özü və hədəfi əbədidir.

O, haqq yolunda, ədalət və azadlıq yolunda, Allah və İslam yolunda, insanların və insani dəyərlərin dirçəldilməsi yolunda şəhadət şərbətini içdi. Görəsən, bu məfhumlar nə vaxtsa köhnələcəkdir?! Xeyr, heç vaxt!



## Kim qələbə çaldı?

Bu böyük və qanlı mübarizədə Bəni-üməyyə və onların qəddar, qaniçən və dünyapərəst ordusu həqiqi qələbəyə nail oldumu?! Yoxsa canlarını və hər şeylərini haqqa, fəzilətə eşq yolunda Allaha fəda edən İmam Hüseynə və onun fədakar köməkçilərinə nəsib oldu?!

Qələbə və məğlubiyyətin həqiqi məfhumuna diqqət yetirdikdə bu sualların cavabını tapmaq olar: Qələbənin mənası o deyildir ki, insan müharibə meydanından sağ-salamat çıxsın, yaxud düşmənini həlak etsin. Əksinə, həqiqi qələbə odur ki, insan öz hədəfini irəli aparsın, düşmənin öz mənfur məqsədinə çatmasının qarşısını alsın.

Bu mənaya diqqət yetirməklə bu qanlı mübarizənin yekun nəticəsi tam aydın olur. Hüseyn və onun vəfadar köməkçiləri qəhrəmanlıq və rəşadət göstərdikdən sonra şəhadət şərbətini içsələr də öz müqəddəs hədəflərinə tam mənada nail oldular.

Hədəf bu idi ki, Bəni-üməyyənin İslama zidd olan mürtəce hərəkatının mahiyyəti və iç üzü ifşa olunsun, müsəlmanların arasında ümumxalq fikir oyansın, ümmət cahiliyyət dövrünün, küfr dövranının tör-töküntülərinin və bütpərəstlik qalıqlarının hiylələrindən agah olsunlar. Bu hədəf də gözəl formada yerinə yetirildi.

Onlar nəticə etibarı ilə Bəni-üməyyənin zülm və haqsızlıq ağacını kökündən kəsdilər, qəsbkar hökumətin nəslinin kəsilməsi istiqamətində müqəddimələri hazırlamaqla – belə ki, cahiliyyət adət-ənənələrinin, fəsad və irqçiliyin, zülmkarlığın dirçəldilməsi bu hökumətin fəxri idi – onun iyrənc, mənfur kölgəsini müsəlmanlarının başı üzərindən götürdülər.

Yezidin hökuməti peyğəmbər ailəsindən olan fəzilətli insanları, xüsusilə də İslamın böyük rəhbəri və peyğəmbərin sevimli nəvəsi imam Hüseyni qətlə yetirməklə öz həqiqi simasını, mənfur mahiyyətini ifşa etdi, peyğəmbərin canişinliyini iddia edən bu alçaq insanların iç üzünü hamıya göstərdi.

Qəribə deyildir ki, Kərbəla hadisəsindən sonra baş verən bütün inqilab və üsyanlarda “şəhidlərin intiqamı”, yaxud “Ali-Məhəmmədin rizası” şüarlarını görürük. Bu şüarlar Bəni-Abbasın hakimiyyətə çatdığı dövrə qədər davam etmişdir. Onlar da bu şüardan istifadə edərək hakimiyyətə çatdılar, amma sonradan zülm etməyə başladılar. Bundan da böyük qələbə ola bilərdimi ki, onlar öz müqəddəs hədəflərinə çatmaqla yanaşı, üstəlik bütün dünya azadlıqsevərləri üçün bir nümunə və örnəyə çevrildilər.

## Nə üçün yas saxlayırıq?

Bəziləri irad tutub deyirlər ki, imam Hüseyn (ə) qələbə çaldısa, nə üçün bayram keçirmirik? Nə üçün ağlayırıq? O böyük zəfər müqabilində bu cür ağlamaq düzdürmü?

Bu iradı tutanlar əzadarlığın mahiyyətini başa düşmür və onu zəlalət üzündən olan ağlamaqla səhv salırlar. Ağlamaq və insan qəlbinin qapısı olan gözdən axan yaş, dörd qisimdir:

**1. Şövq və sevinc üzündən ağlamaq**

Uzun illərdən sonra öz əziz balasını tapan ananın ağlaması, yaxud bir ömür məhrumiyyətdən sonra pak eşqinə nail olan, vüsala çatan şəxsin axıtdığı göz yaşları şövq və fərəhdən irəli gəlir.

Kərbəlada baş verən qəhrəmanlıqların çox qismi fərəhləndirici, təsirli hərəkətlərdir. Onu eşitmək və ya zehində canlandırmaqla insanın gözündən sevinc yaşları axmağa başlayır. Bu qədər rəşadət, fədakarlıq, şücaət və insaniyyəti, zahirdə əsir olmasına baxmayaraq kişi və qadınların atəşin xütbə söyləməsi və s. kimi hadisələri eşidən insan göz yaşı axıdır. Bu göz yaşları məğlubiyyətə dəlildirmi?!

**2. İnsani duyğular üzündən ağlamaq**

İnsanın qəlbi daş deyildir! İnsani duyğularını təcəssüm etdirən bu qəlb soyuq qış gecəsində atasının fərağında və anasının ağuşunda can verən yetim bir uşağın can vermə mənzərəsini müşahidə etməklə lərzəyə gəlir, göz yaşı axıtmaqla bu duyğuların cizgilərini onun üzündə cızır. Bu da insani duyğularla dolu olan diri bir qəlbin göstəricisidir.

Görəsən, Kərbəla hadisəsində atasının qucağında oxlanaraq qanına qəltan olan, əl-ayaq çalaraq çabalayan və oradaca can verən südəmər körpənin başına gələnləri eşitməklə, insanın qəlbi döyünərsə, öz ürək yanğısını göz yaşları ilə izhar edərsə, bu ağlamaq zəlalət və bacarıqsızlıq nişanəsidir, yoxsa o qəlbin ayıqlığına dair bir dəlildir?!

**3. Hədəflə bağlı ağlamaqlar**

Bəzən göz yaşları insanın hədəfindən xəbər verir. "Biz imam Hüseynin (ə) məramı ilə həmfikir, onun hədəfi ilə həmahəngik və onun məktəbinin ardıcıllarıyıq" – demək istəyənlər bəzən bu işi alovlu şüarlar verməklə, yaxud şerlər oxumaqla nümayiş etdirirlər. Amma bəzən bu işlər uydurma ola bilər. Lakin bu təsirli hadisəni eşitməklə qəlbindən üzünə göz yaşları axıdan bir şəxs bu həqiqəti daha artıq sədaqətlə bəyan edir. O, bu göz yaşları ilə İmam Hüseynin (ə) yavərlərinin müqəddəs hədəflərinə vəfadarlığını, onlara qəlbən və ruhən bağlı olduğunu elan edir, bütpərəstlik və zülm ilə mübarizəyə qalxdığını göstərir, aludəliklərə qarşı ikrah hissini nümayiş edir. Belə ağlamaq həzrətin müqəddəs hədəfləri ilə tanış olmadan mümkün ola bilərmi?!

**4. Zillət və məğlubiyyət üzündən ağlamaq**

Öz hədəflərinə nail olmayan, daxilində inkişaf, qələbə üçün heç bir ruhiyyəyə malik olmayan zəif və bacarıqsız insanların evin bir küncündə oturaraq aciz-aciz ağlaması bu qisimdəndir. İmam Hüseyn (ə) üçün belə ağlamaq əsla rəva deyildir. O həzrətin özü də belə ağlamaqlara nifrət hissi ilə yanaşır. Əgər ağlayırsansa, insani duyğulardan, hədəfə olan bağlılıqdan, şövq və fərəhdən ağla.

Amma matəm və əzadarlıqdan daha mühüm məsələ imam Hüseynin (ə) və onun köməkçilərinin məktəbi ilə yaxından tanış olmaq, əməldə o böyük şəxsiyyətin hədəfləri ilə bir olmaq, pak olmaq, pak yaşamaq, düzgün düşünüb düzgün əməl etməkdir.

Ayətullahul-Üzma Şeyx
Nasir Məkarim Şirazi

# PEYĞƏMBƏRİN ALTI TÖVSİYƏSİ

***Bir gün Həzrət Muhəmməd Peyğəmbər (s) İmam Əli ibn Əbu Talibdən (ə) soruşdu: "Ya Əli! Hansını seçərsən: sənə altı yüz min baş sürü bağışlayım, altı yüz min dinar pul verim, yoxsa altı yüz min hikmətli kəlam öyrədim?".***

***Əli (ə) buyurdu: "Sonuncunu seçərəm, ey Allahın Rəsulu! Mənə altı yüz min hikmətli kəlam öyrət". Peyğəmbər buyurdu: "Mən altı yüz min kəlamı cəmi altı kəlamın içində toplayıb sənə deyirəm.***

***Əvvəla, o zaman ki, gördün camaat öz üstünlüklərini (fəzilətlərini) sayıb öyünməklə məşğuldur, sən vacib olan ibadətləri yerinə yetirməklə məşğul ol.***

***İkincisi, o zaman ki, gördün camaat dünya işlərinə baş qarışdırır, sən axirət işləri ilə məşğul ol.***

***Üçüncüsü, o zaman ki, gördün camaat başqalarının eybini deyib rişxənd etməklə məşğuldur, sən öz eyiblərinlə məşğul ol (yəni onları düzəltməyə çalış).***

***Dördüncüsü, o zaman ki, gördün camaat öz dünyasını bəzəməklə məşğuldur, sən öz axirətini bəzəməklə məşğul ol.***

***Beşincisi, o zaman ki, gördün camaat əməlin (ibadətin) sayını çoxaltmaqla məşğuldur, sən ibadəti ürəkdən, səmimiyyətlə yerinə yetirməklə məşğul ol.***

***Altıncısı, o zaman ki, gördün camaat məxluqun (özündən güclü olanın) ətəyindən yapışır, sən Yaradana sığın".***

# DÜNYA VƏ AZƏRBAYCAN KLASSİK ŞAİRLƏRİNİN ƏSƏRLƏRİNDƏ ƏHLİ-BEYT (Ə)



**Əhlibeyt (ə) şairlərinin ümdə məqsədlərindən biri də məzhəblərarası ixtilafların həlli olub**

Bəzi tədqiqatçılar bunu tarixi Azərbaycan torpaqlarında Cəfəri məzhəbinə mənsub hökmdarların başçılıq etməsi ilə əlaqələndirir. Lakin, şairlərin bəzisinin yaşadığı dövrə baxsaq, bunun tamamilə əksinə olduğunu görərik. Misal üçün Nizaminin Şirvanşahlar, Nəsiminin Teymurilər, Füzulinin Osmanlılar dövründə yaşadığını nəzərə alsaq, bu yanaşmanın yanlış olduğu bir daha bizə sübut olar. Teymurilər dövründə yaşayan Nəsiminin o dövrdə Yezidi qan içən it, donuz adlandırmasına heç də ötəri baxmaq olmaz . Nəsimi qeyri- Əhli-beyt ideyalı hakimlərin hökmranlıq etdiyi ölkələrdə yaşayan mütəfəkkirlər arasında, bəlkə də, təqiyyə etməyən yeganə şair idi. Bəhanə olaraq Nəsimini kafir kimi öldürsələr də, əslində, buna səbəb onun əhlibeyti (ə) təbliğ etməsi idi. Sual çıxa bilər ki, bu cəza niyə məhz Nəsimiyə şamil olundu, niyə Nəsimi bu qədər təqib olunurdu? Əlbəttə, cavab çox sadədir. Nəsiminin Əhli-beyt (ə) haqda olan ağır fəlsəfə yüklü şeirləri sanki musiqi bəstəsində idi. Başa düşən də, başa düşməyən də bu rəvan, axıcı şeirləri dillərində zümzümə edirdi. Məclislərdə Nəsiminin qəzəlləri, qəsidələri oxunurdu. Bu şeirlər qılınc gücü ilə dəyişilməyən beyinlərə daha tez təsir edirdi. Bir sözlə Nəsiminin Əhlibeyt(ə) məzmunlu şeirləri cəmiyyət arasında daha sürətlə yayılırdı.

Onun şeirlərində əqidəsinin birbaşa izharı siyasi cəhətdən Nəsimi üçün çox təhlükəli idi.

**Mən ol sadiq qulam kim, Cəfəriyəm.**
**Həqiqət söylərəm, haqq Heydəriyəm...**
**Nəsimiyəm,Yezidə lənətim var,**
**Əzəldən mən düçare Xeybəriyəm.**

Nəsimi şeirlərinin birində dərisinin soyulmasına fətva verənləri belə adlandırmışdır. “ Şul pustimi soydu Yezid-Mərvanilər”. Buradan bir daha məlum olur ki, Nəsimi İslamda təriqətlər zəminində süni şəkildə ixtilaflar yaradan hakimlər tərəfindən təqib olunurmuş.

Nəsiminin tənqid hədəflərindən biri də özlərini arif kimi göstərən bəzi sufilər idi.

**Bir məgəsdir balı yox.**
**Bir ağacdır barı yox**

Burada Nəsimi o dövrün hakim dairələrini, əqidəsiz din xadimlərini, riyakar zahidləri – özlərini balverən arıya bənzətmək istəsələr də, məgəs (milçək) adlandırmış, barsız ağaca bənzətmişdir.

Nəsiminin nəsihətamiz şeirləri də tərbiyəvi cəhətdən çox mühümdür. Şeirlərinin birində ədib təriqət çaşqınlığında qalanlara belə buyurur:

**Ey könül hər bivücuddan can umursan, nə əcəb.**
**Bikərəmdən lütfilən, ehsan umursan, nə əcəb.**
**Bişəriətlər nə bilsün ənbiyanın şərtini,**
**Bitəriqətdən rəhe ərkan umursan, nə əcəb?!**
**Bibəsrdən məniye şövqe kəmale mərifət,**
**Bixəbərdən söhbəte ürfan umursan, nə əcəb?!**
**Hər qayanın ləli olmaz, hər dənizin gövhəri,**
**Hər sədəfdən loloye mərcan umursan, nə əcəb?!**
**Çun Əzrayil əhsəne təqvimə baş endirmədi,**
**Onda sirre kəbeye Hənnan umursan, nə əcəb?!**
**Divuna məhrum ke, tutmaz isme Əzəmdən xəbər,**
**Əhrimədən rəhməte Rəhman umursan, nə əcəb?!**
**Heçmiş zöhdü və zerqi, zahidin əfsanəsi.**




**Şul fəqihdən məniye Quran umursan, nə əcəb?!**
**Umma hər qəlbi zoğaldan aşiqin əsrarını.**
**Kafirin könlündə sən iman umursan, nə əcəb?!**
**Ey Nəsimi, bivəfadan umma gəl rəsme vəfa.**
**Bivəfadan əhdilən peyman umursan, nə əcəb?!**

Füzulinin də yaşadığı dövr Əhli-beyt(ə) mövzusuna müraciət etmək baxımından çox təhlükəli idi. 100 il özündən qabaq yaşamış Nəsiminin başına gələnlər dahi Füzuliyə həyəcan siqnalı idi. Buna baxmayaraq, özündən sonrakı şairlərə bu mövzuda meyar ola biləcək əsərini yazır. Kərbəla hadisəsindən bəhs edən "Həqiqətüs-süəda" o dövr üçün Füzulinin siyasi baxımdan şedevr əsəri sayıla bilər.

Həmçinin, dünya klassik şairlərinə də nəzər salsaq, onların da eyni ilə Azərbaycan ədiblərinin "günündə" olduğunu görərik. Misal üçün Firdovsinin, Sədinin, Ruminin yaşadıqları dövrə və yazdıqları əsərlərə diqqət etsək, bunun tam şahidi olarıq . Ruminin bəzi məzhəblər arasında ixtilaflı məsələ olan "son xilaskar"əqidəsi tamamilə Əhli-beyt (ə) ideyasına uyğundur. Misal üçün şeirlərinin birində on ikinci imamın adının Mehdi (ə), həmçinin Həzrət Əlinin (ə) nəslindən olacağını bildirir.

**Həmişə yaşar İmam, həm Vəliyyi qaimdir!**
**O Əli nəslindəndir, mətanəti daimdir!**
**Mehdidir, Hadidir o, əməli düz İmamdır,**
**Həm gizlidir görünmür, həm də ali-məqamdır.**

Ruminin fars dilində yazdığı məşhur əsəri olan "Məsnəviye Mənəvi"nin ilk iki misrasına nəzər salaq.




**Beşeno əz ney çun hekayət mikonəd**
**Vəz codayiha şekayət mikonəd.**

**Eşit neydən hekayət edir**
**Ayrılıqdan şikayət edir**

Əsər "beşeno" (fars dilində eşitmək sözünün ikinci şəxsin təkində əmr formasındadır) kəlməsilə başlayır. Tədqiqatçıların nəzərincə, əsərin "beşeno" kəlməsi ilə başlanmasında məqsəd Həzrət Əlidir(ə).

Qurani-Kərim "Bismilləhir rəhmanir rəhim " ayəsi ilə başlayır. Bu ayənin ilk hərfi "Be"dir . "Be" hərfinin nöqtəsi isə Həzrət Əliyə(ə) şamil edilir. (ərəb əlifbasnda "B" səsini hərf kimi ifadə etmək üçün altında nöqtəsi olan işarədən istifadə edilir). Rəvayətə görə, Həzrət Əli (ə) dərdini heç kimə deyə bilmədiyindən bir quyu qazır və dərdini həmin quyuya danışır. Vaxt keçir, həmin quyudan bir ney (qamış) bitir. Bir gün oradan keçən bir çoban həmin qamışı kəsir və ondan tütək (ney) düzəldir. Elə ki tütək dilə gəlir, əslindən (qamışlıqdan) ayrıldığı üçün fəryad edir.

Əlbəttə, burada Rumi insanın İlahidən ayrı düşməsinə işarə edir. "Vəhdətül-vücud" fəlsəfəsinə görə insan əslən İlahidən ayrılıb və sonda İlahiyə qovuşacaqdır. Ruminin ürfan məsələsində Əhlibeytə (ə) müraciət etməsi təsadüfi deyildir. Tarixdəki bütün ariflərin Əhli-beytlə (ə) əlaqədə olmaları zövq əhlinə məlumdur. Ruminin "Məsnəviye-Mənəvi"dəki məsumlar barədə olan fikirləri əsərin ideyasını, həmçinin ədibin əqidəsini demək olar ki, müəyyən edir.

Əsərdə Müaviyə ilə iblisin görüşü də diqqətəlayiq dərəcədə maraqlıdır.

Görkəmli Əhli-beyt(ə) şairlərindən biri də Seyid Əzim Şirvanidir. Səxavətin mənbəyini Həzrət Əlinin(ə) timsalında göstərən Şirvani eyni zamanda məzhəb məsələsində də ayrı-seçkilik salmamış və şeirlərinin birində " Mən nə sünniyəm, nə şiə" ifadəsini işlətmişdir. Bu ifadəni eyni ilə İmam Hüseynə (ə) aid çox sayda mərsiyyələr yazmış və Seyid Əzim Şirvaninin davamçısı sayılan Mirzə Ələkbər Sabir də şeirlərinin birində işlətmişdir. Bu da birbaşa sübut edir ki, Əhli-beyt (ə) şairlərinin ümdə məqsədlərindən biri də məzhəblərarası ixtilafların həllidir.

Vüsal Hətəmov (Birlik.az)

# “HƏR GÜN AŞURA, HƏR YER KƏRBƏLA” ŞÜARI RƏVAYƏT VƏ YA HƏDİSDİRMİ?

كل يوم عاشوراء كل ارض كربلاء

**QISA CAVAB**

**Rəvayi mətnlərində bu cümlənin (Hər gün Aşura, hər yer Kərbəladır) məsumlardan nəql olunan hədis olmasını isbatlayan heç bir sənədə rast gəlmədik. Amma sözügedən ibarə Kərbəla hadisəsi kolleksiyasından düzgün götürülmüş, imamət xəttini göstərən və bir neçə ibrətli mesajı əhatə edir. Heç bir gün Aşura günü kimi olmayıb və olmayacaq, amma zalımların məzlumlara zülmü daim vardır. O vaxtadək ki, İmam Zaman (ə.c.) zühur edəcək və zülmün kökünü kəsəcəkdir. Lakin Aşura mədəniyyəti hər zaman diridir. Kərbəla isə hədəf uğrunda istiqamət, zülmə və ədalətsizliyə qarşı mübarizə göstəricisidir. Dini liderlərimiz zalımlarrın zülmü ilə mübarizə etməyi bizə öyrətmiş, habelə özləri də buna əməl etmişlər. Belə də deyil ki, Aşura müəyyən zaman və məkan çərçivəsində məhdud bir hadisə olsun.**

Rəvayi mətnlərində bu cümlənin

«كل يوم عاشوراء و كل ارض كربلاء»

(Hər gün Aşura, hər yer Kərbəladır) məsumlardan nəql olunan hədis olmasını isbatlayan heç bir sənədə[1] rast gəlmədik.[2] Amma sözügüdən ibarə Kərbəla hadisəsi kolleksiyasından düzgün götürülmüş, imamət xəttini göstərən və bir neçə ibrətli mesajı əhatə edir. Heç bir gün Aşura günü kimi olmayıb və olmayacaq, amma zalımların məzlumlara zülmü daim vardır. O vaxtadək ki, İmam Zaman (ə.c.) zühur edəcək və zülmün kökünü kəsəcəkdir. Lakin Aşura mədəniyyəti hər zaman diridir. Kərbəla isə hədəf uğrunda istiqamət, zülmə və ədalətsizliyə qarşı mübarizə göstəricisidir. Dini liderlərimiz zalımların zülmü ilə mübarizə etməyi bizə öyrətmiş, habelə özləri də buna əməl etmişlər. Belə də deyil ki, Aşura müəyyən zaman və məkan çərçivəsində məhdud bir hadisə olsun.

“Hər gün Aşura, hər yer Kərbəladır” cümləsi haqla batilin toqquşmasının bütün zaman və məkanlarda davamlı, ardıcıl olduğunu göstərir. Aşura və Kərbəla bu uzun zəncirin ən bariz həlqələridir. Haqq və batil daim rəqibdirlər. Azad insanlar haqqı müdafiə, batillə mübarizə vəzifəsini öhdəliklərinə götürmüşlər. Onlara bitərəf qalmaq isə dinsizlikdir.

İmam Xomeyni (r.ə.) İmam Hüseynin (ə) həqiqi ardıcılı, İslam Cumhuriyyətinin bünövrəsini qoyan və öz zamanın zalımlarına qarşı böyük mübariz sözügedən cümləni “Böyük cümlə” kimi izah edirdi. O, Aşura mənasının qorunmasına və Kərbəla rolunun icrasına təkid edərək buyururdu: “Bu cümlə (Hər gün Aşura, hər yer Kərbəla) dahi cümlədir... Millətimiz hər gün bu təəssüratda olmalıdır ki, bu gün Aşuradır və biz zülmün müqabilində dayanmalıyıq, bu yer isə Kərbəladır və Kərbəla rolunu biz yerinə yetirməliyik. Yalnız bir məkana, yalnız bir qrupa aid deyil. Kərbəla hadisəsi yalnız yetmiş neçə nəfərlik cəmiyyətə və təkcə Kərbəla məkanına aid deyildir. Bütün məkanlar bu rolu icra etməlidirlər.”[3]

Həqiqətdə İmam Xomeyni bu etiqadla - “Seyyid əş-Şühəda”nın şəhadəti və qiyamı müsəlman cəmiyyətinin əməl meyarı sayılmalıdır - İmam Hüseyn (ə) qiyamını İslam inqilabında öz hərəkatının özülü qərar verdi. “Seyyid əş-Şühəda”nın yerinə yetirdiyi missiya, sahib olduğu ideya, getdiyi yol və şəhadətdən sonrakı qələbəsi, İslam qələbəsi idi. Belə bir ibrətli ibarə həm təklif, həm də müjdədir. Məzlumlar az sayları ilə şəhidlərin sərvəri kimi - şeytani, əzəmətli və qüdrətli cihazlarla təchiz olmuş - zalımlara qarşı qiyama məmur olduqlarına görə bu aspektdən təklif sayılır. O cəhətdən müjdədir ki, şəhidlərimiz Kərbəla şəhidlərindən sayılmağına gətirib çıxardı.”

O müdrik rəhbər müharibə ərəfələrində buyurdu: “Aşura qiyamının zaman baxımından ən kiçik

toqquşma olmasına baxmayaraq davamiyyət baxımından ən uzun döyüş idi. Hər kəs istədiyi zaman Kərbəlada olmağı, şəhidlərin imamına kömək etməyi və şəhadətə yetişməyi arzulasa,

«يا ليتنا كنا معكم فنفوز فوزا عظيما»

(Ya leytəna kunna məəkum fənufuzu fövzən əzima)[4] Kərbəla meydanı isti, Aşura qiyamı bərqərardır".[5]

Daha yaxşı izah etsək, İmam Hüseyn (ə) Adəmin, Nuhun, İbrahimin, Musanın, İsanın (ə) və Məhəmmədin (s) varisidirsə, Aşura ardıcılları da cihad və şəhadətin qırmızı xəttinin varisləridir. Kərbəla bayrağını yerə qoymurlar və bu İslamın siyasi gövhəridir. Belə ki, İmam Hüseynin (ə) özü əlavə edir: "fə ləkum fi usvətun" "Mənim işimdə sizin üçün ülgü vardır".

Yazıçılardan biri yazır: "Mən yəqin bilirəm ki, əgər İmam Hüseyn (ə) bizim zamanımızda olsaydı, Qüdsdən, Lobnanın cənubundan və bir çox İslam məntəqələrindən ikinci Kərbəla yaradardı və Müaviyə və Yezidin müqabilində tutduğu mövqeni yenidən icra edərdi."[6]

---

[1] - Əlbəttə, bəziləri bu cümləni sənədsiz-sübutsuz İmam Sadiqdən (ə) nəql ediblər, Bax: "Peyami-Aşura", Abbas Əzizi, səh. 28; "Fərhəngi-Aşura", Cavad Mühəddisi, səh. 371

[2] - Bəziləri də qərinələr göstərirlər ki, bu da cümlənin məsumlardan (ə) nəql olunan hədis olmadığını bəyan edir, Bax: "Məcəlleyi-ülumi-hədis", 36-cı nömrə

[3] - "Səhifeyi- Nur", cild.30, səh. 195

[4] - "Aşura" ziyarəti

[5] - "Tarixi-Təbəri", cild.4, səh. 304

[6] - "Əl-İntifazat əş-Şiiyyə", "əl-Həsəni" kimi tanınmış Haşim, səh. 378

***Rəvayətlərdə nəql olunur ki, bütün ilahi peyğəmbərlər(ə) İmam Hüseynə(ə) əza saxlayıblar. Mötəbər hədislərdə hətta Həzrət Muhəmmədin(s) İmam Hüseyn(ə) kiçik olarkən ona yas saxladığı barədə deyilir. Elə İmam Hüseynin(ə) Kərbəlada şəhid olacağını Peyğəmbər(s) özü əvvəlcədən xəbər vermişdi və ona ağlamağı tövsiyə etmişdi. Hədislərin birində deyilir ki, Cəbrayıl(ə) Peyğəmbərə(s) nazil olaraq ona bir ovuc torpaq verir. Peyğəmbər(s) bu torpağın haradan gətirildiyini soruşduqda Allahın vəhy mələykəsi bunun Kərbəla çölündən gətirdiyini və onun nəvəsi İmam Hüseynin(ə) Kərbəlada şəhid olacağını deyir. Bu xəbərdən ağlayan Peyğəmbər(s) həmin torpağı xanımı Ümmü Sələməyə(s.ə) verir və deyir ki, bu torpaq qana bulaşsa Hüseynin(ə) şəhid olduğunu bilsin. Bu hadisənin üstündən neçə il ötdükdən sonra Aşura günü Ümmü Sələmə(s.ə) Peyğəmbərin(s) verdiyi torpağın qana bulaşdığını görür və küçəyə çıxıb fəryad edir. Digər bir rəvayətdə İmam Sadiqin(ə) Həcc mövsümündə Məkkədə mərsiyəxanlara pul verib İmam Hüseynə(ə) növhə oxutdurduğu da nəql olunur.***







# Müsəlmanlarda İslam Ruhu Ölüb

***...Müsəlmanlar arasında İslam həm mövcuddur, həm də mövcud deyil. İslam mövcuddur, o mənada ki, biz, müsəlmanlar arasında dini ayinlərin mövcud olmasının şahidiyik. Camaat azan səsi eşidir, namaz vaxtı məscidə gedir, ölüləri İslam adətləri ilə dəfn edir, yeni doğulan körpələr üçün İslami adətlərə uyğun mərasimlər keçirirlər və adları, əsasən, müsəlman adları – Məhəmməd, Həsən, Hüseyn, Əbdürrəhim, Əbdürrəhman olur. Lakin bu camaatda İslamın ruhu yoxdur, İslam cəmiyyətində İslam ruhu ölüb. Buna görə də İslam həyatının dirçəldilməsi lazımdır. İslami həyat dirçəldilməlidir və onun dirçəldilməsinə imkan da var. Çünki İslam özü ölməyib, müsəlmanlar ölüb. İslamın ölməməsinin səbəbi onun səma kitabının mövcud olması, Peyğəmbərinin sünnəsinin (yolunun) qalmasıdır. Bunlar sağdır. Yəni dünya onlardan daha yaxşısını gətirə bilməyib. Quranın gətirdiyi şey Ptolemey teoremi deyil ki, yeni bir nəzəriyyənin gəlib onu ləğv etdiyini demək mümkün olsun. Yaxud “təbiət dörd ünsürə əsaslanır” nəzəriyyəsi deyil ki, bu gün müasir elmin gəlib həmin dörd ünsürün hamısının mürəkkəb olduğunu, ünsür olmadığını, ünsürün bundan çox olduğunu dediyini deyək. İslam canlı təməl və əsaslarla diridir. Belə isə problem haradadır?***

Problem müsəlmanların təfəkküründədir. Yəni müsəlmanlar İslamı canlı və diri deyil, ölü dərk edirlər. Bu ona bənzəyir ki, siz canlı toxumu əkinçilik qaydalarına zidd şəkildə torpağa basdırasınız və o cücərməsin, torpağın altına da kök atmasın, torpağın şirəsini özünə çəkməsin. Yaxud ona oxşayır ki, canlı bir pöhrəni bir yerdən çıxarıb başqa bir yerdə əkmək istəyəsiniz. Bu pöhrə hazırda diridir. Amma siz onu tərsinə əksəniz, yəni kötüyünü yuxarıda saxlasanız, yuxarıda olmalı olan başını isə torpağın altına basdırsanız, bu həm var, həm də yoxdur.

Əmirəl-möminin Əlinin (ə) incə bir ifadəsi var. O, İslam və müsəlmanların gələcəyi barədə belə buyurur: “İslam kürkün tərsinə geyinilməsi kimi geyinilər”. Yəni camaat İslam libası geyinər, amma onu tərsinə geynilən kürk kimi geyinər.

Kürk qışda soyuğun qarşısını almaq üçündür. Bəzən insanlar kürkü kənara atır və soyuğun qabağında çılpaq dayanırlar. Bəzən isə kürk geyinirlər, amma lazım olan formada yox, tərsinə geyinirlər. Yəni onun tüklü tərəfini çöldə saxlayır, dəri olan tərəfini isə bədənə tərəf geyinirlər. Bu halda onun istiliyinin olmamasından və bədəni qızdırmamasından əlavə, həm də çox gülməli və ikrah yaradan bir səhnə yaranır.

İmam Əli (ə) buyurur ki, insanlar İslamı belə edəcəklər və ona həm malik olacaqlar, həm də olmayacaqlar. Ona malikdirlər, amma tərsinə çevirdikləri üçün üstdə olmalı olan altda, altda qalmalı olan isə üstdə qalıb. Nəticədə, İslam var, amma




fəaliyyətsiz və təsirsizdir. Bu İslam daha hərarət verə bilmir, hərəkət və sıçrayış yarada bilmir, güc və bəsirət verə bilmir. O, azara düşmüş pəjmürdə və solğun bir ağaca bənzəyir, ayaq üstədir, amma pəjmürdə və solğundur. Əgər yarpaqları da varsa, onlar da solğun və pəjmürdədirlər. Nədir bunun səbəbi? Bunun səbəbi müsəlmanların İslamı necə qəbul və dərk etmələridir. Yəni müsəlmanlar onun başından, ayağından, ya kökündən yapışırlar? Müsəlmanlar onu parçalayır, bir hissəsini götürür, digər hissəsini isə götürmürlər? Onun zahirini götürür, amma məğzini götürmürlər, yaxud məğzini götürüb zahirini kənara atırlar? Nəhayət: “Orada nə ölər, nə də diri qalar”, – şəklinə düşürlər. Nə ölü, nə də diridir. Nə mövcud olduğunu, nə də mövcud olmadığını demək olur.

Bu, çox mühüm mətləbdir. Yoxsa ki, bizim oturub avropa mədəniyyət və sivilizasiyasını tənqid edib İslam mədəniyyətini tərifləməyimizlə, İslam mədəniyyətinin və İslam ruhunun bizim bu gün malik olduğumuz şeydən ibarət olduğunu güman edib dünya əhalisinin gəlib bizim arxamızca getməsini gözləməyimizlə iş qabağa getməz. Əgər dünya əhalisi gəlib bizim arxamızca düşsə, onlar da bizim kimi, yəni yarımcan olacaqlar.

Ümumiyyətlə, “İslami həyat” və “İslami təfəkkür həyatı” kimi bütün ifadələr əsası Quran tərəfindən qoyulmuş prinsiplərdir. Bu ifadələrin kökü Qurandandır. Quran buyurur: “Ey iman gətirənlər, sizi, sizə həyat verən şeyə tərəf dəvət edən zaman Allahın və Onun Peyğəmbərinin çağırışını qəbul edin”. Yəni ey insanlar! Bu Peyğəmbərin – sizi, sizə həyat bəxş edən həqiqətə dəvət edən Peyğəmbərin çağırışını qəbul edin. Bu Peyğəmbər sizin üçün bir İsrafildir, diriləndir, onun təlimləri həyat bəxş edəndir.

Sizdən soruşmaq istəyirəm, həyatın xüsusiyyəti nədir? Ümumiyyətlə, həyat nə deməkdir? Quran cahiliyyət dövrünün insanları barəsində onların ölü olmalarını buyurur: “Sən ölülərə eşitdirə bilməzsən”. “Sən, əsla, qəbir əhlinə eşitdirə bilməzsən”. Buyurur ki, sənin gördüyün bu insanlar hərəkət edən ölülərdir. Onlar torpaq altında olmaq əvəzinə, torpağın üstündə yol gedən, hərəkətdə olan ölüdürlər. Onlara diri demək olmaz. Lakin müsəlmanlara buyurur ki, gəlin, bu təlimləri qəbul edin. Bu təlimlərin xüsusiyyəti sizə can və güc verməsindədir, həyat bəxş etməsindədir. Həyatın xüsusiyyəti nədir? Siz həyatın tərifini deyən hər bir alim və filosofdan soruşun, görün, nəyə həyat və yaşayış demək olar? Ümumiyyətlə, həyatın mənası nədir? Əlbəttə, heç kəs həyatın həqiqət və mahiyyətinin tərifini demək iddiasını etmir. Lakin həyatı nişanələri ilə tanımaq mümkündür. Sizin bu sualınıza belə cavab verilər ki: Həyat mahiyyəti məchul olan bir həqiqətdir ki, onun iki xüsusiyyəti var: biri agahlıq (xəbərdar olmaq), digəri isə hərəkətdir.

İnsanın agahlığı nə qədər çoxdursa, daha çox həyata malikdir. Həmçinin nə qədər çox hərəkət edirsə, daha çox həyatı var. Eləcə də onun agahlığı nə qədər azdırsa və o, nə qədər xəbərsizdirsə, bir o qədər ölüdür. Habelə nə qədər hərəkətsizdirsə, bir o qədər ölüdür. O, xəbərsizliyi nə qədər sevirsə, ölülük üstündə daha bir ölülüyə malikdir. Həmçinin hər nə qədər hərəkətsizliyi sevirsə, ölülük üstündə daha bir ölülüyə malikdir. İndi siz baxın, görün, bizlər ölüyük, yoxsa yox? Bizim nəzərimizdə hərəkətsizliyin, yoxsa hərəkətin hörməti çoxdur? Yəni yaşadığımız cəmiyyət hərəkəti çox olan adama, yoxsa tam sükunət və vüqarla öz yerində oturan və tərpənməyən adama çox-çox hörmət edir? Şair demişkən (mənası):

İstəyirsən, vur mənim alnıma, ya quyruğuma, hərəkət etmərəm əsla, dönmərəm ətrafıma.

Gördüyünüz kimi, yaşadığımız cəmiyyət bu şəxsə daha çox ehtiram edir. Hər hansı bir cəmiyyətin daha xəbərsiz, agahlıqdan uzaq insanı bəyənməsi və öz təbinə uyğun görməsi onun tam bir ölü olmasının əlamətidir.

Mürtəza Mütəhhəri

67 -Cİ SURƏ

# MÜLK SURƏSİ



**«MÜLK» HAKİMİYYƏT DEMƏKDİR, MƏKKƏDƏ NAZİL OLMUŞDUR.**

***Surənin ilk ayəsində hansı məsələdən danışılır? İnsanların dünya həyatı nə üçündür?***

***Əksər insanlar nədə səhv edir? Surənin 15-ci ayəsində yer necə təqdim olunur? Bu ayədən hansı nəticə əldə olunur?***

Surənin mətni haqqında: Surənin ilk ayəsində oxuyuruq: «Hökm əlində (ona məxsus) olan Allah çox xeyir-bərəkətlidir. O hər şeyə qadirdir.» Bəli insanların faydalandıqları hər bir şey Allahındır. Biz insanların qərq olduğu rəngarəng, müxtəlif nemətlər hamısı Ondandır. Gözəl təbiət, ruzi, sağlamlıq, əql kimi bitib-tükənməyən nemətlərin hamısı varlıq aləminə hakim mehriban Allah tərəfindəndir. Bütün şeylərin varlığı Ondandır və Onun iradəsi altındadır. Allah hökm sahibidir, dünya və axirətin ixtiyarı onun əlindədir.

Surənin 2-ci ayəsində insanın yaranış məqsədi bəyan olunur və buyurulur: «Hansınızın daha yaxşı əməl sahibi olduğunu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O yenilməz qüvvət sahibidir, çox bağışlayandır.» Dünya həyatını yalnız ləzzət almaq üçün vasitə hesab edənlər kökündən yanılırlar. Ölüm və həyat insanların sınağa çəkilməsi üçündür. Məhz bu yolla yaxşı iş görən insanlar aşkarlanır. Həqiqi bəhrə isə axirətdədir, yəni dünya imtahanından sonra!

Həyatımızın əsas məqsədini təyin etməkdə əksəriyyət kimi yanılmamalıyıq. Dünya əkin, axirət isə biçin yeridir. Əkin vaxtı rahatlıq axtarıb, kölgədə yatanlar, təbii ki, biçin zamanı əliboş qalırlar. Yaxşı torpağı, suyu, mərhəmət yağışı olan və çalışan insanlar böyük fayda götürürlər.

Surənin 15-ci ayəsində yer ram olmuş at kimi tanıtdırılır. Bu at tərslik etmir və ona süvar olmaq asandır. Bu at ərəbcə «zəlul» kimi ifadə olunmuşdur. Məlum olduğu kimi yer də hərəkətdə olan planetlərdəndir. Nücum, astronomiya elmi bu həqiqəti Qurandan əsrlərcə sonra kəşf etmişdir. Quran nazil olduqdan çox-çox sonra Qaliley yerin hərəkətdə olduğunu bildirmiş və təəssüf ki, kilsə tərəfindən mühakimə olunmuşdur. Quranda yerin hərəkətdə olmasının bildirilməsi də bir möcüzədir. Ayədə buyurulur: «Yeri sizə ram edən Odur. Onun qoynunda gəzin. Allahın ruzisini yeyin. Axır dönüş də ona tərəfdir.»

*İmam Sadiq (ə) buyurdu: Hər kəs "Təbarəkəl-ləzi biyədihil Mulku"-nu özünün vacibi namazlarını qılmazdan əvvəl oxusa, Allah amanında Behiştə daxil olar inşaallah.*

*Allahın Rəsulu (s) buyurub: Təbarək (Mülk) surəsini oxuyan şəxs qədr gecəsini oyaq qalıb əhya saxla-yan kəs kimidir. İbn Əbbas deyir: Allahın Rəsulu (s) buyurdu: "Təbarəkəl-ləzi biyədihil Mulku"-un (Mülk surəsinin) hər bir möminin qəlbində olmasını istəyirəm. Əbi Hurəyrədən rəvayət olunub ki, Nəbiyyi-Əkrəm (s) belə buyurdu: Otuz ayəsi insana şəfaət etməyən surə, həqiqətdə Allahın kitabından deyildir. Beləliklə Qiyamət günündə onu Cəhənnəm odundan çıxarıb, Behiştə daxil edən surə təbarəkdir (Mülk surəsi). İbn Məsuddan rəvayət olunub ki, ölü qəbrə qoyulan vaxtda, ayaq tərəfindən əzab mələyi gəlib və sonra ona deyilər: Sizin ona əliniz çatmaz, çünki o Mülk surəsini oxuyardı. Sonra onun baş tərəfindən gələr, onun dili deyər: Sizin ona əliniz çatmaz, çünki o mənimlə Mülk surəsini oxuyardı. O vaxt (ibn Məsud) dedi: O surə qəbr əzabından ona mane olar. Bu surə Tövratda Mülk surəsi adı ilə tanınır. Bir kəsin gecə onu oxuması daha yaxşıdır. Sidir Seyrəfi rəvayət edib ki, imam Muhəmməd Baqir (ə) buyurdu: Mülk surəsi Mumaniə (mane olan) surəsidir, çünki, o qəbr əzabına mane olur. Tövratda da Mülk surəsi adı ilə yazılıb. Hər kəsin onu gecələr oxumağı daha yaxşıdır və onun üçün qəbr əzabından mane olacaqdır. O qəflətdə olanlardan yazılmaz və mən (imam Məhəmməd Baqir (ə)) işa namazından sonra onun nafiləsində oturan halda bu surəni oxuyaram. Əlbəttə bir kəs yaşadığı müddətdə gecə və gündüz onu oxusa, qəbirdə Nəkir və Nakir onun ayaq tərəfindən gələn zaman, ayaqları onlara deyər: Siz məndən yuxarı əl tapa bilməzsiniz. Çünki, bu bəndə mənim vasitəmlə qalxıb, Mülk surəsini oxumuşdur. Sonra onlar onun qarın tərəfindən gələrlər. Ölmüş qarın onlara deyər: Məndən yuxarı sizin üçün yol yoxdur, çünki bu bəndə məni Mülk surəsi üçün bir qab kimi qərar vermişdir. Onlar dil tərəfindən gələn zaman, onlara deyər, sizin ona əliniz çatmaz, çünki həqiqətən bu bəndə gecə və gündüz Mülk surəsini oxumuşdur.*



# Bərdə İmamzadəsi



Azərbaycan torpağı daim Əhli-Beyt (ə) ailəsinin sığınacaq yerlərindən biri olub. Buna misal olaraq Bakıda Bibi-heybət, Bakının Nardaran kəndində Rəhimə xanım ziyarətgahı, Bülbülə kəndindəki İmamzadə, Bakının Bilgəh kəndindəki Leyla xanım ziyarətgahı və başqa ziyarətgahları qeyd etmək olar.

Bu məkanlarda İmam (ə) övladları dəfn olunub və hər zaman xalqımız tərəfindən böyük ehtiramla ziyarət olunur. Belə ziyarətgahlar ölkəmizin müxtəlif bölgələrində də mövcuddur. Onlardan Gəncə, Bərdə İmamzadəsini və s, nümunə göstərmək olar. Bu kiçik yazıda ölkəmizin qədim şəhərlərindən biri olan Bərdə İmamzadəsi barədə oxuculara məlumat vermək istəyirik.

Bərdə şəhərində yerləşən bu qədim ziyarətgahda İmam Cəfəri Sadiqin (ə) qız nəvəsi Şahzadə İsmayilin qəbri yerləşir. O dövrlərdə Əbbasi xəlifələrinin Əhli-Beyt (ə) ailəsinə etdiyi zülmlərin əlindən hicrət edən Şahzadə İsmayil daim Əhli-Beyt (ə) aşiqi olan Azərbaycan torpağına sığınır. Bu yerlərdə xalqın dəstəyi və köməyi ilə Əbbasi xəlifələrinin zülmündən amanda qalmaq mümkün idi.

İpək yolunun üstündə yerləşən Azərbaycanın qədim şəhərlərindən biri olan Bərdə Şahzadə İsmayilin məskunlaşdığı yer olur. O ömrünün sonuna kimi bu torpaqda yaşayıb dünyasını dəyişir. Əhli-Beyt (ə) ailəsinin davamçıları olan Azərbaycan xalqı İmam (ə) övladının dəfn olunduğu məkanı qoruyub saxlamış və hər zaman ziyarət etmiş, onu vasitəçi bilib öz istəklərini Allah-təaladan istəyirlər. Hal-hazırda da bura xalqımızın daim ziyarət etdiyi yerlərdən biridir.

12-ci əsrdə İbrahim adlı tacir xalqın bir qəbri ziyarət etdiyini görür, maraqlananda ona bildirirlər ki, burada İmam Cəfəri Sadiqin (ə) qız nəvəsi Şahzadə İsmayil dəfn olunub bunu eşidən tacir öz hesabına qəbrin üstündə çay daşlarından günbəzli ziyarətgah tikdirir. Qeyd edək ki, Ensklopediyada bu ziyarətgah "Tacir İbrahim" adı ilə qeyd olunub.

1868 - ci ildə İmamzadə türbəsinin 4 minarəsi Memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən bərpa olunub. Sonda bir məlumatı da qeyd edək ki, Memar Kərbəlayi Səfixan Qarabaği 1788 – ci ildə Azərbaycanın qədim və gözəl şəhərlərindən biri olan Şuşada anadan olub. 1910 – cu ildə isə dünyasını dəyişdiyi bildirilir.

Memar Kərbəlayi Səfixan Qarabaği 1864 – cü ildə Şuşadakı Gövhərağa məscidini, 1868 – ci ildə isə Ağdam məscidini bərpa edib.



# Həqiqi kasıbçılıq

Günlərin bir günü dövlətli ata, oğlunu kəndə aparır. Səyahət isə bir məqsəd daşıyırdı: bəzi insanların nə qədər kasıb olduqlarını oğluna göstərmək. Səyahət zamanı, onlar olduqca kasıb bir ailədə gecələməli oldular.

Səyahətdən qayıtdıqdan sonra, ata oğlundan soruşur: -“Bəzi insanların nə qədər kasıb yaşadıqlarını gördün?”

Oğul: – “Bəli” deyə cavab verir.

Ata: – “Bəs bundan nələri öyrəndin?”

Oğul: – “Onu gördüm ki, bizim bir itimiz var, onların isə dörd. Bizim bağçada bir hovuzumuz var, onlarınsa ucsuz-bucaqsız çayları. Bizim bağçada elektrik lampaları var, onlarınsa saysız-hesabsız ulduzları. Bizim görmə sahəmiz on həyətə qədərdir, onlar isə bütün üfüqü görürlər.”

Oğlu sözünü bitirdikdən sonra atası deməyə söz tapmadı.

Daha sonra oğlu dedi: – “Çox sağ ol ata, nə qədər kasıb olduğumuzu göstərdiyin üçün!”

---

# Gözünü fəda edən Ana

Anamın ancaq bir gözü vardı.Ona nifrət edirdim...çünki, bu əziyyət məni çox utandırırdı.Ailəmizi dolandırmaq üçün o, məktəbdə aşbazlıq edirdi.İbtidai sinifdə oxuyarkən bir gün anam məni görməyə gəlmişdi. Utandığımdan yerin dibinə girdim.Bunu mənə necə edərdi?! Ona məhəl qoymadım. Ona nifrətlə baxıb oradan qaçdım. Sabahısı gün sinif yoldaşımın biri istehzayla dedi:- Sənin ananın yalnız bir gözü var.Yerin dibinə girmək istədim, həmçinin anamın yox olmasını arzuladım.Buna görə də həmin gün onunla qarşılaşarkən dedim ki,”Məni gülünc vəziyyətə salmaqdansa ölsən daha yaxşıdır!!!”Anam cavab vermədi.Dediklkərim haqqında bir saniyə belə düşünmədim, çünki çox hirsli idim.Onun hissləri məni maraqlandırmırdı. Onu evdə istəmirdim.

Çox oxudum və Sinqapura oxumağa getdim.Sonra evləndim, özümə ev aldım, uşaqlarım oldu. Həyatımdan çox razı idim.

Bir gün anam Sinqapura məni görməyə gəlmişdi. Neçə il idi ki, anam məni görmürdü və nəvələrini də tanımırdı. Qapını açanda uşaqlarım ona güldü. Ona “Evimə gəlib uşaqlarımı qorxutmağa necə cəsarət etdin?”Dərhal burdan get.-deyə qışqırdım.Anam sakitcə “Üzr istəyirəm, deyəsən səhv ünvana gəlmişəm”-dedi və getdi.Bir gün məktəbdən məzunlar görüşünə dəvət edən bir məktub aldım. Həyat yoldaşıma iş səyahətinə gedirəm deyə bir bəhanə uydurdum.Məzunlar görüşündən sonra sırf maraqdan köhnə evimizə getdim. Qonşular anamın öldüyünü söylədilər.Heç kədərlənmədim.Anamın mənə yazdığı bir məktubu mənə verdilər.Məktubda yazılmışdı:”Ən sevgili oğlum, hər an səni düşünürəm. Sinqapura gəlib uşaqlarını qorxutduğum üçün məni bağışla. Məzunlar gününə gələcəksən deyə çox sevinmişdim.Amma səni görmək üçün yataqdan qalxa bilərəmmi bilmirəm. Sən böyüyərkən daima sənin üçün utanc olduğum üçün məni bağışla. Bilirsən...... sən hələ çox balaca olanda bir qəza keçirtmişdin və bir gözünü itirmişdin.Bir ana kimi, sənin tək bir gözlə böyüməsinə dözməzdim.Buna görə də sənə öz gözümü verdim....o gözlə mənim yerimə görürsən deyə səninlə o qədər qürur duyuram ki....Bütün sevgimlə. Anan.

---

# Namaz qılmayan şəxsə şeytanın cavabı

Keçmiş zamanlarda bir nəfər Ərəbistan çöllərində təkbaşına uzaq bir səfərə çıxıbmış. Şeytan onu yolundan azdırmaq üçün təğyiri-libas olub insan qiyafəsində onun qarşısına çıxır və deyir:

- Salam, ey dost. Görürəm, təkbaşına harasa səfər edirsən. İstəyirsənsə, sənə yol-yoldaşı olaram. Mənim də yolum sən getdiyin tərəfədir.

Həmin şəxs çox sevinir və şeytanın təklifini qəbul edir. Bu minvalla iki yoldaşı uzun-uzadı yollarına davam edirlər. Nəhayət qaş qaralır, axşam düşür. Birdən şeytan yoldaşına deyir:

- Mən səninlə dostluq etmək istəmirəm!

Adam bunun səbəbini soruşduqda Şeytan dillənir:

- Səhərdən səni müşahidə edirəm. Səni bir dəfə də olsun namaz qılan görmədim. Mən insan qiyafəsinə girmiş şeytanam. Səni yolundan azdırmaq üçün belə etdim. Baxdım ki, səni azdırmağa ehtiyac yoxmuş. Mən Allaha yalnız bir dəfə səcdə etməyib Ona asi oldum. Bu əməlimə görə də Allah məni qiyamətə qədər lənətlədi. Sən isə gündə beş dəfə Allaha səcdə etməyə tənbəllik edirsən. Ona görə də səninlə olmağımla bir daha Allahın lənətinə düçar olmaqdan qorxuram və səninlə dostluq etməkdən imtina edirəm. Sənin vəziyyətin mənimkindən betərmiş ki!

## "Mələikələr də gülüb-ağlayırlarmı?"

Peyğəmbər (s) Cəbraildən soruşdu: "Mələkələr də gülüb-ağlayırlarmı?" Dedi: "Bəli. Üç nəfərə təccüblənib gülürlər və üç nəfərə də mərhəmət və ürəyiyananlıq edib ağlayırlar. Güldükləri kəslərdən birincisi odur ki, bütün gün ərzində pis-pis danışır, axşam olanda da elə ki, işa namazını qılır, yenə boş-boş və lazımsız söhbətlərə başlayır bu zaman məlaikələr ona gülüb deyirlər: "Ey bixəbər! Səhərdən axşama qədər doymadın, indi doyacaqsan?!"

İkincisi əlinə bel və külüng götürüb torpağını şumlamaqdan ötrü öz tarlasına gedən tamahkar kəndlidir. O, öz payını artırmaq məqsədilə qonşu tarla ilə öz tarlasını ayıran torpaq sahəsini də belləyib öz sahəsinə qatmaq istəyərkən məlaikələr ona gülüb deyərlər: "Bu genişlikdə torpaqdan gözün doymadı, bu kiçik hissədən doyacaq?!" Üçüncüsü özünü naməhrəm kişilərdən örtməyən qadın barəsindədir. Elə ki, ölən zaman onu kəfənə büküb qaranlıq və gözlərdən gizlin olan yerə – qəbirə qoyarlar, məlaikələr gülüb deyərlər: "Rəğbətə səbəb olduğu zaman onu gizlətmirdiniz, indi gizlədirsiniz?! Halbuki, indi ona yalnız nifrət və ikrah olunar.

Məlaikələrin ağladıqları kəslər isə bunlardır: Biri elm ardınca gedərkən yolda ölən qəribdir. İkincisi övladları olmayan və ömürləri boyu övlad həsrəti ilə yaşayan yaşlı kişi və qadındır. Elə ki, yaşlı çağlarında övladları olar, onlar sevinər ki, bu yaşımızda bizim xidmətimizdə durar, öləndən sonra da bizi dəfn edər. Həmin vaxt həmin övladları ata-anasından qabaq dünyasını dəyişər. Məlaikələr ata-anadan qabaq həmin övladın halına ağlayarlar. Üçüncüsü gecənin bir aləmi oyanıb (yuxulu olduğu üçün) anasının yoxluğundan xəbəri olmayan, ağlayaraq onun dalınca getmək istəyən yetimdir. O, ağlayan zaman dayə onun üstünə acıqlanıb deyər: "Nə ağlayırsan?!" Həmin an anasının olmamağı uşağın yadına düşər və ümidsiz halda susar. Həmin vaxt məlaikələr onun qəribliyinə ağlayarlar.

## Əcəldən qaçmaq olmaz

Bir nəfər təlaşla, həyəcan içində özünü Süleyman Peyğəmbərin (ə) hüzuruna yetirir. Tir-tir titrəyirdi, sifətinin rəngi qaçmış, dodaqları qurumuşdu. Elə bil aslan ağzından qurtarmışdı.

Həzrəti Süleyman:

- Bu nə haldır, nə olub sənə? - soruşur.

Adam da həyəcan içində, təntiyərək belə cavab verir:

- Əzrail qarşıma çıxdı, mənə çox qəribə, bir qədər də qəzəblə baxdı. Elə baxdı ki, bütün vücudum qorxudan tir-tir titrədi. Dayanmadan qaçıb sənin yanına gəlmişəm.

Həzrəti Süleyman soruşdu:

- Yaxşı, bəs məndən nə istəyirsən?

Adam belə dedi:

- Sən adil padşahsan, küləyə əmr elə ki, məni Hindistanın uzaq bir adasına aparsın. Bəlkə, orada Əzraildən canımı qurtaram.

Həzrəti Süleyman onun xahişini yerinə yetirdi və külək o adamı götürüb Hindistanın uzaq bir adasına apardı. Növbəti gün Həzrəti Süleyman şikayətçiləri qəbul edərkən Həzrəti Əzraili gördü və ondan soruşdu ki, dünən o adama niyə elə qəzəblə baxıb.

Həzrəti Əzrail belə dedi:

- Ey Allahın şanı, Uca Peyğəmbəri, mən o adama qəzəblə baxmadım. Sadəcə, onu görəndə çox təəccübləndim. Çünki Cənabi-Allah mənə belə əmr etmişdi: "Get filan qulumun canını Hindistandakı filan adada al". Mən də onu burada görəndə heyrətə düşdüm ki, bu adamın yüz qanadı olsa da, yenə bu gün Hindistana yetişə bilməz. Ona görə də çox təəccüblənmişdim. Amma Allah-Təalanın mənə buyurduğu həmin adaya getdim, adamı orada tapdım və canını aldım.

Demək ki, qədərdən qaçmaq olmur. Unutmayın həyatda qismətdən artıq götürmək olmur.



# DUA mənbələrində

***Bağışlayan və mehriban Allahın adı ilə. Həmd olsun aləmlərin Rəbbi olan Allaha. Allahın salavat və salamı olsun Məhəmmədə və onun pak ailəsinə. İlahi, öz kərimliyin xatirinə bizim əməllərimizi xalisləşdir və öz rəhmətinlə bizə başa düşməkdə və başa salmaqda tofiq ver. Ey rəhimlilərin ən rəhimlisi!***

Məsumlardan (ə) bizə gəlib çatan dualar tərbiyəvi baxımdan ən lazımlı sərmayələrdir. Bu dualarda səmavi maarif vardır. İmamlar (ə) uca maarifi dualar vasitəsilə bəyan etmişlər.

*(Əvvəli ötən sayımızda)*

Dualara diqqət edin! Görün ki, imamlar (ə) bu dualarda nə qədər ağlamış və Allahdan onları qəbul etmələrini istəmişlər. İmam Səccadın (ə) vətr namazlarında duaları vardır. Məlumdur ki, dua üçün təəccüblü halı olmuşdur. Kamal əldə etmək üçün gecənin, xüsusilə də vətr namazının çoxlu təsiri vardır. Bu bir rəkətli vətr namazı o qədər əzəmətlidir ki, müqəddəs şare işa namazından sonra iki rəkət namaz qılmağı tövsiyə edir. Bu iki rəkət namaz, vətr namazının yerinədir. Yəni əgər bir kəs yuxuya qalıb vətr namazını qıla bilməsə, bu iki rəkət onu əvəz etsin. Peyğəmbər (s) bəzən bu iki rəkəti qılır, bəzən də qılmırdı. Çünki o həzrətə gecə namazı qılmaq vacib idi və bilirdi ki, o bir rəkəti mütləq qılacaq.

İmam Səccad (ə) vətr namazının duasında deyir: "İlahi, əgər mənim kimi birisinə rəhm etsən, mənə də rəhm et!" Sonra deyir: "Əgər mənim kimi birisini qəbul etsən, məni də qəbul et!", "Ey sehrkarları qəbul edən!" Yəni ey o Allah ki, Fironun zamanında Musanın möcüzəsini gördükdən sonra, tövbə edən sehrkarları qəbul etdin, məni də qəbul et!.

Fironun sehrkarları ömürləri boyu Allaha küfr etmişdilər. Amma bir səcdə etdilər. Yalnız bir səcdə! Ömürlərində bir səcdədən artıq səcdə etmədilər. Elə vaxt olur ki, bir səcdə "səmaya qalxıb, günəşin işini görür". Bəziləri elə bilirlər ki, ibadətin bir tərəfi nazdır, bir tərəfi də niyaz.

**Onun feyz ziyafətxanəsindən bəhrələnmək yasaq deyil**
**Qapı açıqdır, sənin məsləhətin süfrəyə qoyulmuşdur.**

Fironun sehrkarları bir dəfə səcdə etdilər və qəbul oldular. Bəzən elə olur ki, insan Allaha bir anlığa yönələ bilir və həmin bir an öz işini görür. Bu hədisi eşitmisiniz. Allah bir dəstəni cəhənnəmə göndərər. Onlardan biri qayıdıb, Allaha dərgahına baxar. Allah buyurar ki, onu qaytarsınlar. Ona buyurar ki, nə üçün baxdın? Deyər: İlahi, mənim ümidim bu deyildi. Bəli, o bir dəfə Allaha baxdı (və onunla da bağışlandı)

Amma mən və sən bir ömürdür ki, ah-nalə edirik və Allahın rəhmətinə göz dikmişik.

Allah Hacı Mühəqqiq Ənsarinin ruhunu şad etsin. O, Qumun ən yaxşı vaizlərindən idi. İrfani moizələr edirdi. Bir dəfə minbərdə deyir: 12-ci sinifdə oxuyan bir qız sinifdə qaldığı üçün özünü öldürmüşdür. Amma mən əlli ildir ki, birinci sinifdə qalıram, amma hələ də özümə gəlmirəm. Hələ də özümdən soruşmuram ki, nə üçün? Özümdə dəyişiklik yaratmaq, təzə bir şey öyrənmək üçün ayılmıram. Dünənimlə, bu günüm fərqlənmir. Bütün işlər və fikirlər təkrardır.

Bəzən kupon ilə mal verirlər. Camaat gecə yarısından durub, gəlir, növbə tuturlar. Bəzilərini görürdüm ki, məsələn, buzlanmış ətə ehtiyacı olduqda onu almaq üçün qış fəslində gecə yarısından növbəyə dayanırdılar. Yaxud bəziləri səhər ticarət etmək üçün gecəni oyaq qalırdılar. Amma Allahla iki dəqiqə söhbət olan gecə namazını ticarət bilmirlər. Məgər gecə namazının duasında oxumuruqmu:

"اللهمّ ارزُقني مِنَ التِّجارَةِ أوسَعَها رزقاً وَ أعظَمَها بَرَكَةً
وَ أتَمَّها عَاقِبَة"

İlahi, mənə çoxlu ruzisi, çoxlu bərəkəti və sağlam olan ticarət ver.

Bir neçə mətləblə bu günkü söhbətimi tamamlamaq istəyirəm və bu barədə sonra yenə söhbət edəcəyik.

Cənab Kaşiful-Ğita gecə sübh azanına bir-iki saat qalmış oğlunu yuxudan oyadır və deyir ki, gəl gedək mövlamızın (ə) hərəminə, gecə namazı qılaq. Oğlu deyir: "Ata, sən get, mən də gələrəm". Amma atası razı olmur. Bunun-la oğlunu ayıltmaq istəyir. Nəhayət, oğlunu çətinliklə də olsa, oyadır və özü ilə aparır. Hərəmin yanında bir dilənçinin oturduğunu görürlər. Kaşiful-Ğita oğlundan soruşur: "Oğlum, bu dilənçi gecənin bu vaxtı burada nə üçün oturmuşdur?" Oğlu deyir: "Bir nəfərin

# İrfan və əxlaq



ona iki qəpik verəcəyi ümidi ilə". Kaşiful-Ğita deyir: "Oğlum, Sənin Allahına bu qədər də ümidin yoxdurmu?"

Bizim ustadımız deyirdi: "Dindarlığı, dünya əhlindən öyrənin. Həzrət Fatimə Məsumənin (ə) hərəminin yanında səhərə qədər oyaq qalırlar ki, müsafir gələcək və onlar müsafirə suhan şirnoyyatı satacaqlar. Görün onlar dünyadan necə iki əlli yapışıblar. Amma biz belə deyilik".

Bir az öncə Mühəqqiq Ənsarinin irfani moizələrindən söz düşdü. Onun qısa moizə və nəsihətlərindən demək istəyirəm ki, əgər bir gün bu söhbətlərim, kasetdən kağız üzərinə köçsə, əbədi olaraq qalsın.

Bir nəfər Ənsarinin yanına gəlib deyir: Kürəyə girmişdim, əsəbləşib, qaçdım. Evdə də ailə-uşaqla dalaşdım. Ağa onun cavabında deyir: "Nə üçün kürəyə girmişdin ki, qaçasan?"

Qabaqlar Quma bir icra başçısı vermişdilər. Olduqca şər adam idi. Qumun tacirlərini o qədər incitmişdi ki, axırda onun zülmündən cana doyan tacirlər yığışıb, Bürucerdinin (rh.) yanına getdilər ki, ağa bir yol tapıb, onu işdən çıxartdırsın. Bürucerdinin katibi onlara demişdi ki, gedin işinizlə məşğul olun. Bürucerdi yox, hətta şah da onu işdən çıxara bilməz. Yəni onu Qərb iş başına gətirmişdir. Ayətullah Bürucerdinin vəfatının səhəri günü onu da işdən çıxardılar. Onun tələbələrin başına gətirmədiyi bəla qalmamışdı. Tələbələri Kaşmir və digər məntəqələrə sürgün edir, sonra da çiyninə nazik əba ataraq gəlib, Ayətullah Bürucerdinin camaat namazında birinci sırada dayanıb namaz qılırdı. Sonra da Bürucerdinin evinə gəlib, deyirdi: Tələbələrdən bir neçəsi burada narahat idilər, öz şəhərlərinə göndərdim.

Kitab satıcısı Mustəfəvi deyir: Bir gün mənim yanıma gəlib, Seyid ibn Tavusun "İqbal" kitabını onun üçün tapmağımı istədi.

Bildiyiniz kimi bu kitabda bir neçə dua vardır ki, onlar "Məfatehul-cinan"da yoxdur. O, bu dualardan da məhrum qalmamaq üçün onları da oxumaq istəmişdir. Məlum olur ki, ən ali şeytanlıq dərsi öyrənmişdir.

Xülasə, bir gün Ayətullah Feyz, Bürucerdi ağanın yanında şəhadət verdi ki, mən öz gözümlə gördüm ki, bu icra başçısı öz əli ilə iki nəfər tələbənin əlinə qandal vurub, polis məmuruna verdi və onlar da tələbələri heyvan kimi çəkə-çəkə apardılar. Ayətullah Bürucerdi bunu eşidən kimi əsəbləşdi və icra başçısı onun evinə gəldikdə, ona dedi: "Get burdan! Bir daha səni görmək istəmirəm". Bununla da o, getdi və hətta, qorxusundan Məscidi-əzəmə də gəlmədi. Amma icra başçısı idi və çoxlu nüfuzlu dostları var idi. Onları vasitə etdi ki, Ayətullah Bürucerdi ona heç olmasa namazın axrıncı səfində dayanmağa icazə versin ki, camaat namazının savabı əlimdən çıxmasın.

Tələbələrdən hər hansı biri bir məsələ qaldırsaydı, onun əbasına əlamət qoyurdu. Bununla da sivakın məmurları onu tanıyıb, tuturdular. Xan mədrəsəsinə girib, tələbələri tutdular, yuxarı mərtəbədən yerə atdılar, bir tələbənin burnuna şişi soxdular. Belə şəxsləri Qumda başçı təyin edirdilər.

Bir gün Mühəqqiq Ənsari təzə icra başçısının qarşısını kəsib, deyir: Sən sübh namazı qılırsanmı? Deyir: Qılıram. Deyir: Namazdan sonra əlinə təsbeh götürüb, 100 dəfə "Bura Qumdur, bura Qumdur, bura Ali-Mühəmmədin hərəmidir", deyirsənmi? Bilirsənmi ki, həzrət buyurub: "Elm axirəz-zamanda Nəcəfdə qürub edər və Qumda çıxar və oradan başqa şəhərlərə yayılar." Sən də əlinə təsbeh götür və öz nəfsinə de: "Qeybət etmə, qeybət etmə!" Bunu davamlı surətdə ara vermədən de".

Qeybət insanın başına çoxlu bəlalar gətirir. İnsan gərək öz nəfsinə təlqin etsin. Çünki, nəfs elə bir şeydir ki, "Nəyə rəğbətləndirsən, ona tərəf meyilli olur". Ölüyə necə təlqin edirlər? Eləcə də özünüzə təlqin edin. Müstəhəbdir ki, qəbrə girib ölünün çiynindən tutub, möhkəm silkələyəsən və deyəsən: "İsmə, ifhəm ya filankəs!" (Eşit, başa düş, ey filankəs). Sonra təlqin oxumağa başlayırsan və deyirsən: "Əgər iki müqərrəb mələk gəldilər". "Qorxma və onlara de..."

Əgər insanı qəbirdə silkələsən, o qədər də faydası yoxdur. Əlbəttə, elə başa düşməyin ki, heç faydası yoxdur. Çünki faydası var ki, şəriət silkələməyi əmr edib. Amma ümdə budur ki, insan bu dünyada özünü silkələsin, tozunu töksün. Biri moizə və nəsihət edərkən onun sözü toza dəyib, dayanmasın, bəlkə birbaşa nəfsə dəysin.

**Ürəyində günahlar üst-üstə yığıldı**
**Onu sirləri görməkdən kor etdi.**

Gələcək bəhslərimizdə imamların (ə) Allah qarşısında necə ah-nalə etmələrindən, hansı təbirlərlə Allahın onları qəbul etmələrini istəmələrindən söhbət açacağıq və Allahın bizi qəbul etməsi üçün Onunla necə söhbət etməli olduğumuzu öyrənəcəyik. İnşallah.

Allahın salavat və salamı olsun Muhəmmədə və onun pak ailəsinə!

**Seyyid Həsən Amili**



# İmam Hüseynin (ə) Quranla ünsiyyəti

İmam Hüseyn (ə) Quranın aşiqi və məftunu idi. Əksər vaxtlarda, xüsusilə gecəyarısı xəlvətə çəkilərək Allaha ibadət etdiyi zaman Quran tilavət edərdi. Hicrətin altmış birinci ili Məhərrəm ayının doqquzu düşmənin hücum xəbəri gəlir və İmam (ə) qardaşı Abbasa buyurur: "Gedib düşməndən bizə bu gecə möhlət verməl変rini istə ki, namaz, dua, istiğfar və Quran tilavət edim".

İmam Hüseyn (ə) o qədər Quranla ünsiyyətdə olurdu ki, hətta onun kəsilmiş başı da bir neçə yerdə Quran ayəsi tilavət etmişdir. Ubeydullahın Kufə şəhərini bəzəmək əmri verməsi ilə camaat küçə-bazarda dayanaraq tamaşaya çıxmışdı. Qəflətən Kərbəla şəhidlərinin kəsilmiş başlarının Quran tilavəti səsi eşidildi. Bu hadisədən heyrətlənən camaatın gözləri yaşla doldu.

Zeyd ibn Ərqəm nəql edir ki, "İmam Hüseynin (ə) pak başını Kufə küçələrində gəzdirən zaman mənə çatanda bu ayəni tilavət etdiyini eşitdim:

"Şübhəsiz, Biz (bir gün) onun üzərində olanları (məhv edəcək və yeri) otsuz-susuz bir çölə çevirəcəyik" ("Kəhf" surəsi, ayə 8).

Bu kəlmələrin heybəti və kəsilmiş başın möcüzəsi məni dəhşətləndirdi. Dedim: "Vallah! Sənin Quran oxuyan kəsilmiş başın Əshabi-kəhfin hadisəsindən daha heyrətamizdir".

Lənətlənmiş Yezidin məclisində də İmamın (ə) müqəddəs başını təhqir edən zaman, baş, Quran qiraətinə başlayaraq aşağıdakı ayələri tilavət etdi.

"(Cəza günü) Zalımları kəsb etdiklərindən qorxan görəcəksən, halbuki özlərinin qazandıqlarının təzahürü eyni ilə onların başlarına gələcəkdir (və ondan qaça bilməyəcəklər). İman gətirərək yaxşı işlər görmüş kəslər isə Cənnətin təravətli bağlarında olacaqlar. Rəbblərinin dərgahında onlar üçün istədikləri şey hazırdır. Bu, həmin böyük lütfdür" ("Şura" surəsi, ayə 22).

Bu ayənin tilavəti həmin məclisdəki Yezid tərəfdarlarını rüsvay etdi və bir çoxlarının bu hadisədən təsirlənib müsəlman olmalarına səbəb oldu.

***İmam Hüseyn (ə) o qədər Quranla ünsiyyətdə olurdu ki, hətta onun kəsilmiş başı da bir neçə yerdə Quran ayəsi tilavət etmişdir.***

# Su içməyin faydaları

***Su içməyin faydası çox vaxt lazımınca qiymətləndirilmir və səhv başa düşülür. Su nəinki susuzluğu yatırmaq üçün və bədənin bir çox biokimyəvi prosesləri üçün vacib elementir; bu həm də makro qidadır. Bu o deməkdir ki, gümrah qalmaqdan ötrü (diri) çoxlu su içmək lazımdır. Karbohidrat, zülal və piy digər üç əhəmiyyətli qidalandırıcı kimi daha ayrı makro qidalandırıcılardır. Suyun belə mühüm dəstəyə aid olduğunu kim bilirdi?***

**Sağlamlığa xeyri**

Bəzi adamlar iyirmi dörd saat əlləşib-vuruşmaqdan əvvəl çox az su içirlər. Onlar ümid edirlər ki, əgər bədənlərini su ilə doldurmasalar çəkiləri az olacaq. Onlar bir şeyi başa düşmürlər ki, nə qədər çox su istifadə edirsən, o qədər az özündə saxlayırsan. Saflamış daxili bədən az saxlayır, amma funksiyaları daha səmərəli olur.

**Su içməyin xeyri**

Su təkcə sənin daxilinə təsir etmir, həmçinin zahirinə çoxlu faydası var. O sağlamlığına, bədəninə uyğun, zəruri əməkdaş ola bilər. Bu gün dərinizə tər-təzə şəfəqləndirici nəmlik verəcək, sabah yaşlananda kömək edəcək.

Məşqlər ərzində müntəzəm su qəbulu, sizi daha yaxşı və məhsuldar məşqlə təmin edəcək. Məşqləriniz nə qədər yaxşı olsa, əhval ruhiyyəniz də bir o qədər yaxşı olacaq.

**Dəyər və fayda**

Əgər siz əmin deyilsinizsə, hər gün dietanıza 64 unsiya (29,86 qram) su əlavə etsəniz faydanın uzaqda olmadığını görərsiz. Görməli olduğun işlər:

Suyun sağlamlığınız və xoşbəxtliyiniz üçün zəruriliyini aydınlaşdırın

Su içməyi gündəlik rejiminizə daxil edin.

**Su içmək üçün altı məsləhət**

Ədviyyələr əlavə edin – Əgər tək su içmə sizi yorursa, xüsusilə suyun ləzzətini artıracaq satılan yeni ədviyyələrdən istifadə edin.



Su qablarınızı özünüzlə gəzdirməkdən ləzzət alın. – Həmişə özünüzlə və ya maşınınızda su gəzdirin. Yaxşı ölçüdə və rəngbərəng su qabları əldə edin. Su qabları nə qədər böyük olarsa, o qədər gec su əlavə etmək lazım gələcək.

Gündəlik vərdişlərinizi dəyişdirin –birinci stəkan su ilə səhərinizi açın. Nahar etməzdən əvvəl dietik sodanınm əvəzinə su (limonlu və ya limonsuz) içməyi bir qayda edin.

Yeməkdən əvvəl bir stəkan su için – Su iştəhanızı nizamlamağa kömək edəcək. Aclıq ilə susuzluğu qarışdırmaq çox asandır; beləliklə ilk suyu dadın. Su içmək əhvalınızı düzəldəcək.

Quru otlardan istifadə edin, buz və limon əlavə edin. Bu bir stəkan suyu dadlı et.

Əlinizin altında həmişə içməyə soyuq suyunuz olsun-Bunu asan edin. Əvvəlcədən planlaşdıranda və hazırlayanda düzgün seçim etmək asandır. Sanki bu deyim kimi "planlaşdırmada yıxılırsansa, yıxılmağı planlaşdır."

"Pəhriz" və ya yemək rejimi ilə hesablaşmasaq, arıqlamaq və sağlamlıq baxımından su həmişə menyudadır. Elə görünə bilər ki, hamının razılaşdığı kimi, su yalnız makro qidalandırıcıdır. Az təsirli dietalar karbohidratların az sərfini istəyir, az piy dietaları piylərin istifadəsinin minimumda olmasının faydasını vurğulayır; balans dietaları müasirləşmədə hər şeyə inanırlar. Bütün bu pəhrizlərin təzyiqi su içməyin vacibliyindədir. Suya pəhriz heç vaxt olmayıb. Bəs onda nəyi gözləyirsiniz.Gündə 8 stəkan su için. Bu asandır və faydalıdır.

# Çay içməyin xeyirləri



Gündə 3-4 stəkan qara və ya yaşıl çay içmək, iflic olma riskini 21 faiz azaldır

Amerikanın Ürək Dərnəyinin Beynəlxalq İflic Konfransında müzakirə olunan tədqiqatda gündə 3 və ya 4 stəkan çay içməyin iflic olma riskini 21 faiz azaltdığı müəyyən edilib.Yaşıl və ya digər çaylar bu xəstəliyin qarşısını almaqda önəmli təsirə malikdir

İnsanlar üzərində aparılan araşdırma zamanı gündə 1 fincan az çay içən insanlarda iflic olma riski gündə 3-4 fincan çay içənlərə nisbətən daha çoxdur. Lakin yaşıl və digər çaylarda olan bu təsiri digər bitki çaylarına aid etmək düz olmaz.

**Çayı çox isti içməyin!**

"Çayı çox isti içməyin". "Təzə dəmlənmiş çayınızı udumlamaq üçün səbirsizlənirsiniz. Amma 5 dəqiqə səbr etmək həyatınızı qurtara bilər. Tədqiqatçılar içkiləri həddən artıq isti içmək vərdişinin özefaqus, yəni yemək borusu xərçəngi ilə əlaqəli ola biləcəyini təyin edib." "Buna görə çayı 70 dərəcədən isti içmək, bu xəstəliyə tutulma riskini 8 qat artırır."

# MUXTAR(NAMƏ) İLƏ BAĞLI

**Çoxdan idi ki, bu mövzuda bir yazı yazmaq istəyirdim. Amma səbəbini özümün də bilmədiyim nəsə buna mane olurdu. Bəlkə də barəsində yazmaq istədiyim nəsnənin sonunu gözləyirdim. Sonu kimlər üçünsə, bəlkə də bundan qabaq gəlmişdi, amma konkret olaraq mənim üçün dünən gəldi.**



Filmlərə o qədər də maraq göstərməyən biriyəm. Xüsusən də tarixi və gerçək hadisələr əsasında çəkilmiş filmlərə. Bu baxımında o hadisələri ehtiva edən kitabları oxumağı tərcih edirəm. Amma bunu bu gün haqqında yazmağı düşündüyüm “Muxtarnamə” filmi barəsində deyə bilmərəm. Bu filmdəki hadisələr ruhuma bu dərəcədə hopmazdı, hətta katorqalı bir vəhşini Jan Valjana çevirən dahi Huqo da onun barəsində yazsaydı.

* * *

Mən burada Muxtarın döyüşlərdə qazandığı qələbələrdən, atından, qılıncından da yaza bilərəm, amma bu halda gerçək qəhrəmanı mifləşdirməyimdən ehtiyat edirəm. Ona görə də Allahın bir insanın həyatını öz dinini yaşatmaq missiyası ilə şərəfləndirdiyindən yazmaq istəyirəm. Mən burada İmam Hüseynin (ə) qanının qisasını almaq missiyasının verildiyi bir insandan yazmaq istəyirəm. Mən burada İmam Həsənə (ə) qoşulmamaqla böyük bir günaha yol verən insanın, sonunda İmam Hüseyn (ə) kimi tənha şəkildə şəhid edilməsindən yazmaq istəyirəm. Mən burada təkamüldən yazmaq istəyirəm, Muxtarın timsalında kamal pillələrini bir-bir, dırnaqları ilə qalxan insandan yazmaq istəyirəm. Mövlananın “Costecu kon, costecu kon, costecu kon, costecu” (Axtarış et, axtarış et, axtarış et, axtarış) kimi ifadə etdiyi tükü-tükdən seçmək qabiliyyətli imandan danışmaq istəyirəm.

* * *

Bu filmə baxmazdan qabaq, etiraf edirəm ki, Muxtar barəsində fikrim birmənalı deyildi. Muxtarın İmam Həsənin (ə) apardığı mücadiləyə qatılmaması kifayət edirdi ki, ona birmənalı qiymət verməyim. Yanılmışdım. Amma indi bütün bunların ilahi təqdiratda Kərbəla üçün müqəddimə olduğunun fərqindəyəm. Nə qədər qəribə olsa da, Allah Muxtarın ağlını onun öz iradəsi ilə almışdı. “Allah bir şeyin olmasını istədiyində insanın ağlını alır, Öz iradəsini gerçəkləşdirir, İradəsi gerçəkləşincə insana ağlını qaytarır. Bax o zaman insan bu necə oldu, bu haradan gəldi kimi suallar soruşmağa başlayır”. Mən İmam Rzadan (ə) nəql edilən bu hədisi də determinizm, fatalizm mənasına deyil, məhz bu cür başa düşürəm. Allah Kərbəlada Aşuranın olmasını istəyirdi; bunu İmamın (ə) yuxusuna da salmışdı, Allah Muxtarın qiyamını və bu qiyamla “ÖZ QANI”nın qisasını almasını istəyirdi; bunu Meysəm Təmmar vasitəsi ilə Muxtara çatdırmışdı. Allah dinini qorumaq istəyirdi, “Şübhəsiz ki, Zikri (Quranı, İslamı) biz nazil etdik. Və onun qoruyucusu da bizik”. Bu dini Kərbəlada Aşura günü diriltdi, amma İmam Səccadla (ə), Zeynəblə (s.ə), Muxtarın qiyamı ilə yaşatdı. Təzədən diriltdiyi bu dini yaşatdı.

# DÜŞÜNCƏLƏRİM



Bu filmdə bu günə qədər abstrakt olaraq bildiyim, bir neçə məsələnin praktik nümunəsini gördüm. Və bunları sizinlə paylaşmaq istəyirəm:

Haqla batil arasındakı məsafə tükdən də nazikdir.

İllərlə haqq cəbhəsində olmaq bu tükdən nazik məsafəni aşmaq üçün əngəl ola bilməz.

Haqq tərəfdə olan batil sərhədinə bir addım atmaqdan sığortalanmayıb.

İllərlə batil tərəfdə olan hələ də haqq tərəfə keçmək imkanını əldən verməyib.

İnsanın keçmiş fədakarlığı onun fədakar insan olmasına dəlalət etmir.

İnsan hər an yolundan aza bilər, eyni zamanda da hər an haqqa gələ bilər. Deməli, öz müqəddəratını, "alın yazısı"nı özü yazır insan.

**Azər Elşadoğlu**
İmam Sadiq (ə) adına İslam Maarifi Akademiyası
«Dəyərlər» Jurnalistika Məktəbinin məzunu









# KROSSVORD

## Eninə

2. Ziyarətgah
6. Son və kamil din
7. Ramazan ibadəti
8. İmam Hüseynin (ə) baba yurdu
10. Məhərrəmin onuncu günü
11. Allah yolunda döyüş
13. Azad Kərbəla qəhrəmanı
14. İlk insan (Peyğəmbər)
17. Zikr muncuqu
18. Münacat
19. İmam Hüseynin şəhid olduğu məkan
21. Dinin sütunu
23. Quranda ikinci surə
24. Allah yolunda dünyasını dəyişən
25. Məhərrəmdən sonrakı ay
26. Can alan mələk
28. Quranda surə
29. Mərsiyyə
30. Müsəlmanın ibadət yeri

## Uzununa

1. Kərbəlada xəstə olan imam
2. Qarşınızda oxuduğunuz qəzet
3. Məhərrəm ayının 9-cu günü
4. Yaradanın ən böyük adı
5. Məsciddə azan oxunan yer
8. Həccdə qurbangah
9. Qolları qələm olan
12. Suriyada şəhər
15. Kərbəlanın başqa adı
16. İmam Hüseynin (ə) qisasını alan
20. İmam Hüseynin (ə) 3 yaşlı qızı
22. Həzrət Hüseynin (ə) Kufə səfiri
27. Ölərkən insandan ayrılan can

# *Məkkə, 1885-ci il*



*Həcc ziyarətinin 1885-ci ilə aid nadir fotoşəkilləri aşkar edilib.*

*Sözügedən şəkillər İraqdan olan oftalmoloq-həkim Əbdülqafar Əl-Bağdadi tərəfindən çəkilib.*

*Fotoşəkillərdə 19-cu əsrin sonlarında müqəddəs Məkkə şəhərində mövcud ab-hava əksini tapıb.*













# İMAN

السلام على الحسين
و على على بن الحسين
و على اولاد الحسين
و على اصحاب الحسين

www.iman.ge www.imanmedia.ge

## *AZAN VAXTLARI*

| Tarix | Sübh azanı | Günəş çıxır | Günorta azanı | Günəş batır | Məğrib azanı | Gecə yarısı |
|---|---|---|---|---|---|---|
| 01 | 6:09 | 7:32 | 12:44 | 17:56 | 18:14 | 00:12 |
| 02 | 6:10 | 7:33 | 12:44 | 17:54 | 18:12 | 00:12 |
| 03 | 6:11 | 7:35 | 12:44 | 17:53 | 18:11 | 00:12 |
| 04 | 6:12 | 7:36 | 12:44 | 17:52 | 18:10 | 00:12 |
| 05 | 6:13 | 7:37 | 12:44 | 17:51 | 18:09 | 00:12 |
| 06 | 6:14 | 7:38 | 12:44 | 17:50 | 18:08 | 00:12 |
| 07 | 6:15 | 7:40 | 12:44 | 17:49 | 18:07 | 00:12 |
| 08 | 6:16 | 7:41 | 12:44 | 17:48 | 18:06 | 00:12 |
| 09 | 6:17 | 7:42 | 12:45 | 17:46 | 18:05 | 00:12 |
| 10 | 6:18 | 7:43 | 12:45 | 17:45 | 18:04 | 00:12 |
| 11 | 6:20 | 7:44 | 12:45 | 17:44 | 18:03 | 00:12 |
| 12 | 6:21 | 7:46 | 12:45 | 17:43 | 18:02 | 00:12 |
| 13 | 6:22 | 7:47 | 12:45 | 17:42 | 18:01 | 00:12 |
| 14 | 6:23 | 7:48 | 12:45 | 17:42 | 18:00 | 00:12 |
| 15 | 6:24 | 7:49 | 12:45 | 17:41 | 17:59 | 00:12 |
| 16 | 6:25 | 7:51 | 12:45 | 17:40 | 17:58 | 00:12 |
| 17 | 6:26 | 7:52 | 12:46 | 17:39 | 17:58 | 00:12 |
| 18 | 6:27 | 7:53 | 12:46 | 17:38 | 17:57 | 00:12 |
| 19 | 6:28 | 7:54 | 12:46 | 17:37 | 17:56 | 00:13 |
| 20 | 6:29 | 7:55 | 12:46 | 17:37 | 17:55 | 00:13 |
| 21 | 6:30 | 7:57 | 12:47 | 17:36 | 17:55 | 00:13 |
| 22 | 6:31 | 7:58 | 12:47 | 17:35 | 17:54 | 00:13 |
| 23 | 6:32 | 7:59 | 12:47 | 17:35 | 17:54 | 00:13 |
| 24 | 6:33 | 8:00 | 12:47 | 17:34 | 17:53 | 00:14 |
| 25 | 6:34 | 8:01 | 12:48 | 17:34 | 17:53 | 00:14 |
| 26 | 6:35 | 8:02 | 12:48 | 17:33 | 17:52 | 00:14 |
| 27 | 6:36 | 8:03 | 12:48 | 17:33 | 17:52 | 00:14 |
| 28 | 6:37 | 8:05 | 12:49 | 17:32 | 17:51 | 00:15 |
| 29 | 6:38 | 8:06 | 12:49 | 17:32 | 17:51 | 00:15 |
| 30 | 6:39 | 8:07 | 12:49 | 17:32 | 17:51 | 00:17 |

*Təsisçi: " İman" mədəni maarif mərkəzi*
*Redaktor: Ramin İgidov*

*Məsul katib: Elvin Bayramov*
*Kompüter dizaynı: Nəqi Cəlilxoca*

*Ünvan: Tbilisi, Mçxeta küç.№4*

*Tel: (822) 23 39 87*

*Qəzetin səhifələrində Quran ayələri və hədislər dərc olunduğuna görə, pak yerdə saxlanmasını xahiş edirik.*